RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 151 (9030) CÜMƏ AXŞAMI, 21 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Sənaye zonalarının yaradılması iqtisadi inkişafda xüsusi əhəmiyyət kəsb edir

## Sumqayıtda bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Sumqayıtda olub. AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.**

**Sonra Prezident İlham Əliyev Sumqayıt şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olub, 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib.**



→ 2-4

## Strateji tərəfdaşlığın yeni yol xəritəsi

### Azərbaycanla Avropa İttifaqı arasında imzalanan anlaşma memorandumu siyasi və ticari əlaqələrin inkişafına mühüm töhfə verəcək

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan yürütdüyü müstəqil siyasətlə xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

→ 6

## İlham Əliyevin praqmatik iqtisadi islahatlarının nəticələri göz qabağındadır

### Dünya iqtisadi tənəzzülün astanasında, Azərbaycan isə dinamik inkişafdadır

Azərbaycan bu gün Cənubi Qafqazın inkişaf etmiş sənaye ölkəsidir. Regionda istehsal olunan sənaye məhsullarının 80 faizi ölkəmizin payına düşür. Təkcə Sumqayıt şəhərində iki qonşu ölkədəkindən çox məhsul istehsal olunur.

→ 7

## Parlaq gələcəyin təminatçıları

### Azərbaycanda uşaqların sağlam, vətənpərvər və cəmiyyətə yararlı şəkildə inkişaf etdirilməsi dövlət siyasətinin prioritetidir

Gələcəyimiz olan uşaqların hüquq və haqlarının qorunması ən ümdə məsələlərdən biridir. Odur ki, doğulduqları gündən onları qorumaq, hüquqlarını anlatmaq, müstəqil həyata səlis addımlamaları üçün daim tədbirlər görülür.

→ 6

## Mətbuatımızın istinadgahı - Həsən bəy Zərdabi

Vəsiyyətinə əməl etmədilər. Yaddan çıxdığına görə yox, onun bircə sözü, kəlamı da unudulan deyildi. Səbəbi başqaydı...

Ölümündən bir neçə gün qabaq yazmışdı vəsiyyətini. Yenə özündən savayı hər kəsi düşünmüşdü. Və bir təntənəli dəfn mərasimini də özünə qıymamışdı. "Sizdən xahiş edirəm, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı…"

Bu, Həsən bəy Zərdabinin son arzusu, son umacağıydı. Ömrü boyu çox sınaqlarla qarşılaşdı, həyatı mücadilələrdə, mübarizələrdə keçdi. Vətəninin, millətdaşlarının gerilikdən, ətalətdən və əsarətdən qurtulmasına səy göstərdi. Bu məqsədlə yurddaşlarının o vaxtadək üz tutmadıqları, getmədikləri yolları seçdi. Birincilərin qisməti isə hər zaman alqışlanmaq, mükafatlar, təltiflər və təriflər olmur. Həsən bəy Zərdabinin keçdiyi həyat yolu bunun acı bir örnəyi idi.

O, Şamaxı quberniyası Göyçay qəzasının Zərdab kəndində dünyaya gəldi.

→ 8

## Mətbuatın və sosial şəbəkənin "muştuluq" xəbərləri

Azərbaycan xalqının özünəməxsus muştuluq xəbərləri var!

Yeni evlənmiş gənclərin övladı dünyaya gələndə qardaş-bacı, ata-ana, dayı-bibi bir-birini muştuluqlayar, hətta muştuluğa hədiyyə kimi nəsə də alarlar.

Yaxud hərbi xidmətdən, döyüş meydanından qayıdan olanda hamı ata-anaya, həyat yoldaşına və övladlara gözaydınlığı verər.

Bunlar hamıya xoş gələn, sevinc və fərəh gətirən xəbərlərdir.

Ölüm xəbəri isə xoş xəbər sayılmır!

İnsanlar hər dəfə bu xəbəri bir-birilərinə kədərlə, yavaş səslə çatdırırlar.

Qabaqcadan "başın sağ olsun" deyə müsahiblərini bu qəfil hadisəyə bir növ hazırlayırlar.

Ən ağır, ən çətin məsələ də övladın, ata-ananın, ərin, bacı-qardaşın ölüm xəbərinin bir-birilərinə çatdırılmasıdır.

Çünki ölüm xəbərini verən adamlar bəzən yaddaşlarda yaxşı xatirə buraxaraq qalmırlar.

Ağıllı, dünyagörmüş insanlar imkan dairəsində "lo xəbər" verməkdən uzaq durmağa çalışırlar.

İnternet sanki dünyanı dəyişib!

Dünya bir yana, xalqımızın milli mentalitetinə də elə bil əl gəzdirib!

→ 7

## Azərbaycan balının qeyri-neft məhsulu kimi ixrac potensialı genişdir

### İşğaldan azad olunmuş ərazilərdə 300 min arı ailəsi saxlamaq mümkündür



Prezident İlham Əliyevin "Azərbaycanda arıçılığın inkişafının stimullaşdırılması haqqında" 2018-ci il 5 mart tarixli sərəncamı bu sahədə ciddi dönüşün yaranmasına səbəb olmuşdur. Sərəncamın imzalanmasından ötən 4 il ərzində ölkə üzrə arı ailələrinin sayı 4,4, bal istehsalı isə 4,8 dəfə artmışdır. Xatırladaq ki, sözügedən sərəncama əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə hər arı ailəsinə (pətəyə) görə subsidiya ödənilir.

→ 10

## *Ağalıya Böyük qayıdış ermənilərdə xof yaradıb:* "Etiraf edək ki, Qarabağ bizim deyil"

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdış proqramı üzrə Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanması ölkə tarixinin ən mühüm hadisələrindən biri kimi qiymətləndirilir.

Zəngilan rayonunun Ağalı kəndinin 58 sakininin - 10 ailənin artıq doğma yurd həsrətinə son verilib. Bu ayın sonuna qədər ümumilikdə 201 sakinin - 41 ailənin Ağalıya yerləşdirilməsi nəzərdə tutulur. Hazırda işğaldan azad edilmiş ərazilərdə icra olunan infrastruktur layihələri dayanmadan genişləndirilir.

→ 9

## Ölkəmizdə taxılçılığın inkişafı üçün hər cür imkan və şərait var

### Sadəcə olaraq, həmin imkanlardan səmərəli istifadə olunmalı, işə can yandırılmalıdır

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda həyata keçirilən aqrar islahatlara uyğun yeni hüquqi bazanın yaradılmasına zərurət yaranmışdır. Bu səbəbdən aqrar sahədə Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş ilk qanunun "Toxumçuluq haqqında" olması, daha sonra "Seleksiya nailiyyətləri haqqında", "Taxıl haqqında" və digər qanunların qəbulu, eləcə də "Kənd təsərrüfatı bitkilərinin toxumlarının sort və səpin keyfiyyəti"nə dair Milli Dövlət Standartının, "Aprobasiya" haqqında təlimat və bir çox digər sənədlərin hazırlanması təsadüfi deyil.



→ 11

# Sənaye zonalarının yaradılması iqtisadi

## Sumqayıtda bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir

### Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimləri olub












**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Sumqayıt şəhərində olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk sənaye parkıdır. Cənubi Qafqazın ən böyük sənaye parkının ərazisində neft-kimya, kimya, tikinti materiallarının istehsalı və digər prioritet sənaye sahələri üzrə müəssisələr fəaliyyət göstərir, həmçinin yeni istehsal və emal müəssisələri yaradılır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, sənaye parkında ümumi investisiyaların həcmi 3,27 milyard ABŞ dollarından artıq olan 31 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 3,1 milyard ABŞ dollarına yaxın sərmayə yatırılıb. Qeydiyyata alınmış 31 rezidentdən 17-si artıq fəaliyyət göstərir. Bu gün istifadəyə veriləcək "Glassica" Qapalı Səhmdar Cəmiyyəti və "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə sənaye parkında fəaliyyət göstərən müəssisələrin sayı 19-a çatacaq.

Parkın rezidentləri tərəfindən ümumilikdə 5,86 milyard manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 2,15 milyard manatdan çox hissəsi (36,7 faiz) ixracın payına düşür.

Diqqətə çatdırıldı ki, Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. Statistik göstəricilərə əsasən, 2021-ci ilin birinci yarısında sənaye parkında 794 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2022-ci ilin müvafiq dövründə 52,14 faizdən çox - 1,2 milyard manatlıq məhsul istehsal olunub. İxrac isə ötən ilin birinci yarısı (267,5 milyon manat) ilə müqayisədə 1,9 dəfə artaraq bu ilin altı ayında 508 milyon manat təşkil edib.

Məlumat verildi ki, sənaye parkında istehsal olunan məhsullar Türkiyə, Yaponiya, ABŞ, Kanada, İtaliya, Çin, Rusiya, Ukrayna, Belarus, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Finlandiya, Niderland, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, BƏƏ, Livan, İraq və sair ölkələrə ixrac olunur.

Əsas göstəricilərdən biri də odur ki, Sumqayıt Kimya Sənaye Parkında 6 mindən çox insan daimi işlə təmin edilib.

Prezident İlham Əliyev əvvəlcə "Glassica" Qapalı Səhmdar Cəmiyyətinin şüşə tara məhsullarının istehsalı müəssisəsi ilə tanış oldu.

Qapalı səhmdar cəmiyyətinin təsisçisi İbrahim Həsənov müəssisə barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci il yanvarın 18-də dövlət başçısı tərəfindən qoyulan, ümumi investisiya dəyəri 20 milyon manatdan çox olan müəssisədə il ərzində 90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsulları (butulka) istehsal olunacaq. Müəssisədə istehsal edilən məhsullar daxili tələbatı tam ödəməklə yanaşı, xarici ölkələrə də ixrac ediləcək. Sənaye parkının 2,6 hektar ərazisində inşa edilmiş müəssisədə 160 nəfər daimi işlə təmin ediləcək. Müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində 135 ildən çox təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti tərəfindən həyata keçirilib.

Dövlət başçısı müəssisəni işə saldı.

❖ ❖ ❖

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "AzTex-Import" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Sənaye parkının 4 hektar ərazisində yaradılan MMC İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillər istehsal edəcək. İnvestisiya dəyəri 19,2 milyon manat olan müəssisədə 90 nəfər daimi işlə təmin olunacaq. İl ərzində 100 ədəd avtomobilin istehsal olunacağı müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, Rusiya, Gürcüstan, Türkmənistan və İrana da ixrac ediləcək.

"Az-Tex-Import" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi Samir İbadullayev layihə barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edildi ki, hazırda ölkəmizdəki sənaye zonalarında avtomobil istehsalı sahəsində bir sıra müəssisələr mövcuddur. Belə ki, Hacıqabul Sənaye Məhəlləsində illik istehsal gücü 1500 ədəd "QAZ" və "İSUZU" markalı yük maşını və avtobus, 5000 ədəd "Chevrolet" markalı minik avtomobili olan müəssisə, Neftçala Sənaye Məhəlləsində illik istehsal gücü 10 min ədəd "Khazar" və "Peugeot" markalı minik avtomobillərinin istehsalı zavodu fəaliyyət göstərir. Növbəti mərhələdə Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "IVECO Daily" yük avtomobillərin istehsalı layihəsi, o cümlədən kənd təsərrüfatı texnikaları və maşınlarının istehsalı üzrə İran-Azərbaycan birgə layihəsinin həyata keçirilməsi planlaşdırılır.

Bildirildi ki, sənaye zonalarında avtomobillər üçün texniki xidmət mərkəzlərinin yaradılması üzrə işlər də aparılır. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" Sənaye parklarında müxtəlif markalı nəqliyyat vasitələri və texnikalara texniki xidmət, həmçinin ehtiyat hissələrinin bərpası və istehsalı layihələrinin reallaşdırılması nəzərdə tutulur. Həmçinin sənaye zonalarında nəqliyyat vasitələrinin bir çox ehtiyat hissələrinin hazırlanması da həyata keçirilir ki, bu, yerli istehsalın genişlənməsinə əlavə imkanlar yaradır.

Prezident İlham Əliyev yük və xüsusi təyinatlı avtomobillərin istehsalı müəssisəsinin təməlini qoydu.

❖ ❖ ❖

Sonra dövlət başçısı "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni inşa edilmiş sulfat turşusu istehsalı müəssisəsində yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, 2021-ci il yanvarın 18-də dövlət başçısının iştirakı ilə təməli qoyulan sulfat turşusu istehsalı müəssisəsi sənaye parkının 1,5 hektar ərazisində inşa edilib. Müəssisədə mineral gübrələrin (superfosfat, amonium-sulfat) istehsalında, kimya sənayesi və metallurgiyada, neft sənayesində təmizləyici maddə kimi istifadə olunan sulfat turşusu məhsulunun istehsalı həyata keçiriləcək. Müəssisənin illik istehsal gücü 20 min tondur. Onun 10 min tonu daxili bazar, 10 min tonu isə ixrac üçün planlaşdırılır. Artıq Gürcüstandan "Rustavi azot" müəssisəsi ilə müqavilə bağlanılıb.





# inkişafda xüsusi əhəmiyyət kəsb edir

## Sumqayıtda bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir

### Kimya Sənaye Parkında yeni müəssisələrin açılış və təməlqoyma mərasimləri olub















Qazaxıstandan və Rusiyadan da sulfat turşusu üçün müraciətlər daxil olur. Daxili bazarda da tələbat artmaqdadır.

Qeyd edildi ki, ümumi investisiya həcmi 10 milyon manatdan çox olan müəssisənin məhsulları ilkin mərhələdə daxili tələbatın ödənilməsinə yönəldiləcək, növbəti mərhələlərdə isə Gürcüstana və Rusiyaya ixrac olunacaq.

**Prezident İlham ƏLİYEV:** İşçilərin sayı nə qədərdir?

**MMC-nin rəhbəri:** 34 nəfər, hamısı Sumqayıt sakinləridir. Onlardan dörd nəfər Vətən müharibəsi iştirakçısıdır, bir nəfər qazimiz var. Hamısı işlə təmin olunub.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı.

Azərbaycan Prezidenti İlham Əliyev müəssisəni işə saldı.

❖ ❖ ❖

Daha sonra "Azərbaycan Vanhong Ceramics Co" Məhdud Məsuliyyətli Cəmiyyətinin keramik plitələr istehsalı müəssisəsinin təməli qoyuldu.

Müəssisənin təsisçisi Fan Jian Shan Prezident İlham Əliyevə layihə barədə məlumat verdi.

Bildirildi ki, layihəyə əsasən Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Azərbaycan Vanhong Ceramics Co" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən sənaye parkının 22,8 hektar ərazisində keramik plitələr istehsalı müəssisəsi inşa olunacaq. Müəssisədə Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələr istehsal ediləcək. Müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

Məlumat verildi ki, 100 faiz Çin kapitallı layihənin investisiya dəyəri 70 milyon manata yaxındır. İllik istehsal gücü 18,5 milyon kvadratmetr keramik plitə olan müəssisədə 400 nəfər daimi işlə təmin olunacaq.

Müəssisənin təsisçisi **Fan Jian SHAN** dedi: Bizim şirkət 1992-ci ildə yaradılıb və hazırda Çində 5 zavodumuz və dünyanın 5 ölkəsində zavodlarımız fəaliyyət göstərir. Müəssisələrimizin ümumi investisiya dəyəri 300 milyon ABŞ dollarıdır. Zavodlarımızda çalışan işçilərin sayı 4 min nəfər təşkil edir. Zavodlarımızın illik ümumi istehsal gücü 80 milyon kvadratmetrdir və ümumi illik gəliri isə 400 milyon ABŞ dollarıdır.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Mən gördüm ki, siz Çindən kənarda cəmi 4 ölkədə müəssisə qurmusunuz. Azərbaycan beşinci ölkədir. Dediyiniz kimi, bu onu göstərir ki, Azərbaycanda investisiya iqlimi çox yaxşıdır. Burada 400 nəfər işləyəcək, yaxşı maaş alacaq. İnvestisiyaların həcmi də kifayət qədər böyükdür - 70 milyon manata yaxındır. Amma bu hələ birinci mərhələdir. Əminəm ki, siz fəaliyyətinizi bundan sonra digər sahələrdə də genişləndirəcəksiniz.

Dövlət başçısı müəssisənin təməlini qoydu.

❖ ❖ ❖

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri olan "4MAPS Bilgi Teknolojileri" Məhdud Məsuliyyətli Cəmiyyəti sənaye parkının 1,5 hektar ərazisində "Tədqiqat və inkişaf, kartoqrafiya və naviqasiya xidmətlərinin təşkili" layihəsini həyata keçirəcək. Layihə çərçivəsində cəmiyyət tərəfindən sənaye parkında müxtəlif xidmətlər təklif edəcək 7 mərtəbəli biznes mərkəzi inşa olunacaq. Mərkəz müasir ağıllı sensorla və yüksək dəqiqliyə malik texnologiya ilə təchiz ediləcək. İnvestisiya dəyəri 10 milyon manat olan müəssisədə 750 daimi iş yerinin yaradılması nəzərdə tutulur.

"4MAPS Bilgi Teknolojileri" MMC-nin təsisçisi Abdullah Demirtaş Prezident İlham Əliyevə layihə barədə məlumat verdi.

Bildirildi ki, "4MAPS Bilgi Teknolojileri" MMC "Apple Maps" "Here Technologies" tətbiqinin MDB, Yaxın Şərq və Azərbaycan, "Yandex Maps" tətbiqinin isə Azərbaycan üzrə təmsilçisidir. Şirkətin əsas fəaliyyət sahəsi coğrafi (xəritə) məlumatların toplanması, formalaşdırılması, 3D və 4D xəritələrin istehsalı xidmətləri olsa da, yeni inşa ediləcək mərkəzdə proqram məhsulları, oyunlar, "metaverse" tətbiqlərinin hazırlanması xidmətlərinin də göstərilməsi planlaşdırılır. Layihənin reallaşdırılması ilə Şərqi Avropa, Gürcüstan, MDB, Orta Asiya ölkələri üçün xəritələrin formalaşdırılması mərkəzi (prosessinq mərkəzi) Azərbaycanda fəaliyyət göstərəcək.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasında bir çox sahələrdə müxtəlif layihələr həyata keçirildi. Xüsusilə indi biz Qarabağda bütün bərpa işlərini bərabər görürük. Amma bu sahədə hələ ki işlər olmamışdır. Bu, birinci layihədir.

**Abdullah DEMİRTAŞ:** Üç xəritədə də erməni adları azərbaycancaya təmənnasız dəyişdirildi. Allahın izni ilə bir həftə içərisində yenidən Qarabağa gedəcəyik, bu dəfə "Google" ilə "mübarizə aparmağa". Çünki biz "Google"un tərəfdaşı deyilik. Amma "Google" üçün buradan cihazlarımızı göndərəcək, koordinatlarımızı ötürəcək və bildirəcəyik ki, artıq Azərbaycan buraya sahibdir...

**Prezident İlham ƏLİYEV:** Bəli, küçələrin, kəndlərin, şəhərlərin adları.

**Abdullah DEMİRTAŞ:** Hamısını dəyişdirdik. "Apple"da, "Here"də, "Yandex"də hamısını dəyişdirmişik. Avtomobilinizə də bu yaxınlarda "Here"in yenilənmiş xəritəsi gəldiyi zaman, növbəti dəfə Qarabağa səfər edəndə, inşallah, Azərbaycan dilində adları görmüş olacaqsınız.

Prezident İlham Əliyev mərkəzin təməlini qoydu.

❖ ❖ ❖

Xüsusi qeyd olunmalıdır ki, ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənayenin, xüsusilə qeyri-neft sənayesinin sürətli inkişafıdır. Dövlət başçısının "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" prinsipinə əsaslanmaqla digər istiqamətlərlə yanaşı, qeyri-neft sənayesinin inkişafına da xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması, innovativ metodlarla sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələrinin yaradılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli və nəticəyönümlü tədbirlər həyata keçirilir. Bu baxımdan hazırkı dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətədavamlı məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Sənaye zonalarında idarəetmənin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Agentlik 6 sənaye parkının (Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları), 4 sənaye məhəlləsinin (Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələri) və 51 aqroparkın fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayır və həyata keçirilməsini təmin edir.

Qeyd edilməlidir ki, sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya və biznes mühiti yaradılıb. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına tam infrastruktur sistemi ilə təmin edilirlər. Rezidentlər qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Sənaye zonaları üzrə indiyədək 108 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i istehsal fəaliyyətinə başlayıb. Sahibkarlar tərəfindən indiyədək sənaye zonalarına 6,4 milyard manatdan çox investisiya yatırılıb və 10 min 100-dən artıq daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 450 milyon manatdan çox investisiyanın yatırılması və 4500-dən artıq yeni iş yerinin açılması nəzərdə tutulur.

Ötən müddətdə sənaye zonalarında ümumilikdə 7,17 milyard manatlıqdan çox məhsul istehsal edilib və bunun 2,3 milyard manatlıq hissəsi (təqribən 32,7 faizi) ixrac olunub.





# Sənaye zonalarının yaradılması iqtisadi inkişafda xüsusi əhəmiyyət kəsb edir

## Sumqayıtda bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir

## Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidə önünə gül dəstəsi qoyub.

## 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzi istifadəyə verilib















İyulun 20-də 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak edib.

Dövlət başçısı 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzinin açılışını etdi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlət başçısına Sumqayıtda 2-ci, ölkə üzrə isə 24-cü olan "ASAN xidmət" Mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, hazırda Sumqayıtda fəaliyyət göstərən 1 saylı Regional "ASAN xidmət" Mərkəzi gün ərzində 3 minə qədər vətəndaşa xidmət göstərir. Xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq, Sumqayıtda ikinci regional "ASAN xidmət" Mərkəzi inşa edilib. Ümumilikdə ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə bu günədək 54 milyona yaxın müraciət daxil olub.

Qeyd edildi ki, 2 saylı Sumqayıt Regional Mərkəzi üçün dördmərtəbəli inzibati bina, fəvvarə, iki yerüstü avtomobil dayanacağı, kafe, istirahət və uşaq əyləncə meydançaları yaradılıb. Fasadlarda müasir texnologiyalardan istifadə edilib.

Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkət və müəssisələr tərəfindən Sumqayıt şəhəri, Qobustan, Xızı, Siyəzən və Abşeron rayonlarında qeydiyyatda olan 700 minə yaxın vətəndaşa ümumilikdə 325 xidmət göstəriləcək. Eyni zamanda mərkəz ölkəmizin digər regionlarında qeydiyyatda olan vətəndaşlara da ərazi məhdudiyyəti olmadan xidmət edəcək. Bu mərkəzdə dövlət orqanlarının fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 192 əməkdaş və 45 könüllü çalışacaq.

Məlumat verildi ki, mərkəzdə 220 videomüşahidə kamerası, 13 monitor, 150 kompüter, 101 printer, 125 İP telefon, elektron növbə sistemini tənzimləyən 18 monitor, 2 "ASAN ödəniş" terminalı, 3 elektron rəy sorğusu (exit poll) köşkü, "108 Çağrı mərkəzi"nə zəng köşkü, elektron şikayət köşkü (Skype), mərkəzləşdirilmiş havalandırma və yanğın söndürmə sistemləri və 2 lift quraşdırılıb.

Mərkəzdə üzərində xüsusi QR kodlar əks olunan məlumat tabloları yerləşdirilib. QR kodları oxudaraq "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin, habelə "YAŞAT" Fondunun fəaliyyəti barədə məlumat əldə etmək mümkündür. Həmçinin regionlarda startapların inkişafını dəstəkləmək məqsədilə burada "INNOLAND" mərkəzi fəaliyyət göstərəcək.

Ülvi Mehdiyev Prezident İlham Əliyevə 2 saylı Sumqayıt "ASAN xidmət" Mərkəzində yaradılan "ASAN müraciət", rəqəmsal dövrdə dövlət xidmətləri və mərkəzləşdirilmiş kart tədarükü sistemləri barədə məlumat verdi.

Bildirildi ki, "ASAN müraciət" sistemi ictimai xarakter daşıyan kommunal, yol və nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi ilə bağlı şikayətlərin elektron xəritə üzərində qeyd edilməklə operativ surətdə aidiyyəti dövlət qurumlarına göndərilməsini və həmin şikayətlərə baxılmanın nəticələrinin izlənilməsini təmin edən informasiya sistemidir.

Qeyd olundu ki, mərkəzdə dövlət xidmətlərinin rəqəmsallaşdırılması və xidmətlərin göstərilməsində reaktiv və proaktiv modellərə keçidin təmin edilməsi məqsədi ilə Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən G2C, G2B və G2G formatında bir çox layihələr həyata keçirilib. Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən formalaşdırılan layihələrin ümumi sayı 25-dən çoxdur.

Həmçinin diqqətə çatdırıldı ki, müasir dövrdə plastik kartların yayılması və müxtəlif sahələrdə istifadəsinin genişlənməsi onların tədarükünə olan marağı daha da artırıb. Plastik kartların operativ şəkildə hazırlanması və istifadəsi zamanı təhlükəsizliyin təmin olunması məqsədi ilə ölkəmizdə mərkəzləşdirilmiş kart tədarükü prosesinin başladılması zərurəti yaranıb.

Mərkəzdə ənənəvi olaraq "ABAD Food Hall" təşkil edilib.

## Sumqayıt Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıq









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Sumqayıt Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Şəhidlər xiyabanında ucaldılmış Qalib Əsgər abidəsinin və Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunan abidənin önünə gül dəstələri qoydu. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə Şəhidlər xiyabanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Sumqayıt şəhərində 1992-ci ildə salınan, 513 şəhidin uyuduğu Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, burada kompleks yenidənqurma işləri aparılıb. Şəhidlər xiyabanında hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb.

Qeyd edildi ki, Şəhidlər xiyabanının ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Şəhidlər xiyabanında yaşıllıq örtüyü salınıb, işıqlandırma sistemi müasirləşdirilib, fəvvarə kompleksi inşa edilib. Burada yenidənqurma işləri çərçivəsində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb, həmçinin inzibati bina inşa olunub.

Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 144 şəxs haqda məlumatların əks olunduğu abidə ucaldılıb.

# "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 1, maddə 1; 1995, № 17-18, maddə 282; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 444; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2008, № 10, maddə 886; 2011, № 2, maddə 71; 2013, № 2, maddə 95; 2016, № 1, maddələr 14, 19; 2017, № 4, maddə 518, № 11, maddə 1949; 2018, № 7 (I kitab), maddə 1403; 2021, № 6 (I kitab), maddə 561) 25-ci maddəsinin 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2022-ci il*

# "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 549-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 212 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 549-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 25-ci maddəsinin 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində "orqan (qurum)" dedikdə tabeliyindəki Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 212 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1498, № 11, maddə 2265) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. həmin Qanunun 9-cu maddəsinin birinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

2.3. 3.2-ci bənddə ismin müvafiq hallarında "bənd" sözü ismin müvafiq hallarında "hissə" sözü ilə, "bəndlərində" sözü "hissələrində" sözü ilə əvəz edilsin;

2.4. 3.3-cü bənddə "bəndinin" sözü "hissəsinin" sözü ilə əvəz edilsin;

2.5. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. həmin Qanunun 25-ci maddəsinin 2-ci hissəsinin dördüncü abzasının birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini tabeliyindəki Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 549-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2022-ci il*

# Azərbaycan və Türkiyə xarici işlər nazirləri arasında telefon danışığı olub



İyulun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini, habelə cari regional vəziyyəti müzakirə ediblər.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, eləcə də Azərbaycan və Türkiyənin iştirakı ilə üçtərəfli formatlara dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı nazirlər qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# Azərbaycan və Rusiyanın xarici işlər nazirləri telefonla danışıblar



İyulun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini və cari regional vəziyyəti müzakirə ediblər. Söhbət zamanı Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların müddəalarının tam icrasının vacibliyi qeyd olunub.

Eyni zamanda tərəflər bölgədə nəqliyyat və tranzit məsələləri ətrafında fikir mübadiləsi aparıb, xüsusilə Rusiya, Azərbaycan və İran ərazisindən keçən "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin potensialının genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan və Latviyanın XİN başçıları ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər



İyulun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Latviya Respublikasının xarici işlər naziri Edqars Rinkeviçs arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər Azərbaycan ilə Latviya arasında ikitərəfli əməkdaşlıq gündəliyinin qarşılıqlı maraq doğuran məsələlərini müzakirə ediblər. Tərəflər eyni zamanda Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının aktual məsələləri üzrə fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı nazirlər həmçinin cari regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Cənubi Koreya Azərbaycanda innovasiyaların inkişafına 2 milyon ABŞ dolları dəyərində qrant ayırıb

İyulun 20-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) ilə Cənubi Koreya Respublikasının Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) arasında "Azərbaycanda innovasiya siyasətinin qurulması"na dair qrant müqaviləsi imzalanıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, müqaviləni Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Azərbaycan Ofisinin Ölkə üzrə direktoru Jong Hyun Moon imzalayıblar.

İki milyon ABŞ dolları dəyərində olan qrant layihəsinin məqsədi Azərbaycanda innovasiya siyasətinin səmərəliliyinin artırılması üçün innovasiyalar üzrə strateji yol xəritəsinin hazırlanmasıdır. Layihə çərçivəsində KOICA təşkilatının ekspert qrupu tərəfindən nazirliyin tabeliyində fəaliyyət göstərən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin iştirakı ilə institusional imkanların artırılması, innovasiya və startap ekosisteminin inkişafı və digər əlaqəli məsələlərə dair araşdırmalar aparmaqla təklif və tövsiyələrin təqdim edilməsi nəzərdə tutulur.

KOICA-nın maliyyə və texniki dəstəyi ilə həyata keçiriləcək layihənin 2024-cü ilədək davam etdirilməsi və bu müddət ərzində qarşılıqlı işgüzar səfərlərin edilməsi planlaşdırılır.

Qeyd edək ki, layihə innovasiya ekosisteminin inkişafına görə lider ölkələrdən biri olan Cənubi Koreyanın təcrübəsindən yararlanmaqla Azərbaycanda müvafiq sahəyə investisiya qoyuluşuna, iqtisadiyyatın müxtəlif sahələrində innovasiyaların tətbiqinə öz töhfəsini verəcək.

# Azərbaycan və Türkiyə prokurorluqları beynəlxalq müstəvidə birgə fəaliyyət göstərirlər

Azərbaycan prokurorluğu fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin hüquq-mühafizə orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlığını uğurla davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ötən ilin noyabrın 1-də Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının Bakıda keçirilmiş ilk iclası çərçivəsində Azərbaycanın baş prokuroru, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti Kamran Əliyevin təşəbbüsü ilə Azərbaycan-Türkiyə-Beynəlxalq Prokurorlar Assosiasiyası formatında üçtərəfli görüş keçirilib.

Formatın səmərəliliyi nəzərə alınaraq iyulun 20-də növbəti görüş İstanbulda keçirilib. Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti görüşdə iştirak edib.

Nümayəndə heyətini səmimi salamlayan Türkiyənin baş prokuroru Bekir Şahin bütün sahələr kimi, ölkələrimizin prokurorluq orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokurorun müavini Heydər Məmmədov yüksək qonaqpərvərliyə və səmimi görüşə görə minnətdarlığını ifadə edərək həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışıb. Beynəlxalq səviyyəli mühüm tədbirlərin, o cümlədən assosiasiyanın 2023-cü ildə regional konfransının İstanbulda, 2024-cü ildə isə illik konfransın və ümumi yığıncağın Bakıda keçirilməsi hər iki ölkədə güclü iqtisadi inkişafın və ictimai-siyasi sabitliyin göstəricisi olduğu vurğulanıb.

Assosiasiyanın baş katibi Han Moraal ölkəmizin təşkilatın işinə verdiyi töhfəni yüksək qiymətləndirərək gələcəkdə də bu əlaqələrin yüksələn xətlə inkişaf edəcəyinə əminliyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin İstanbul şəhərinə işgüzar səfərə gedib



**İyulun 20-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Azərbaycan-Pakistan-Türkiyə Parlament sədrlərinin ikinci üçtərəfli görüşündə iştirak etmək üçün Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisdən verilən məlumata görə, İstanbulun Atatürk Beynəlxalq Hava Limanında nümayəndə heyətini Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım, Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva və digər rəsmi şəxslər qarşılayıblar.

Milli Məclisin Sədri iyulun 21-də burada keçiriləcək Azərbaycan-Pakistan-Türkiyə Parlament sədrlərinin ikinci üçtərəfli görüşünə qatılacaq və bir sıra ikitərəfli görüşlər keçirəcək.

İşgüzar səfər iyulun 22-də başa çatacaq.

***"Azərbaycan"***

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi arasında əməkdaşlıq memorandumu imzalanıb

Ölkəmizdə səfərdə olan Türkiyənin ailə və sosial xidmətlər naziri Dərya Yanık və nümayəndə heyəti DOST Agentliyində olublar.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqlar 1 saylı DOST Mərkəzi ilə tanış edilib, onlara xidmət prosesi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası 2018-ci ildə Prezident İlham Əliyevin Fərmanı ilə icra olunmağa başlanıb.

Mərkəzlərdə vətəndaşlara əmək və məşğulluq, sosial təminat, əlillik, pensiya və s. üzrə 154 növ xidmət göstərilir. Bu xidmətlər "bir pəncərə"dən operativ, şəffaf və vətəndaş rahatlığı prinsipi əsasında təqdim olunur və xidmətlərdən məmnunluq səviyyəsi 98 faizdir. 5 DOST mərkəzində 6 ayda 313 min şəxsə, indiyədək isə 1 milyon şəxsə xidmət göstərilib. 2025-ci ilə qədər DOST xidmətlərinin bütün Azərbaycan ərazisini əhatə edəcəyi qonaqların diqqətinə çatdırılıb. Qardaş ölkənin ailə və sosial xidmətlər naziri Dərya Yanıkın DOST Agentliyinə gəlişi qurumun 1 milyonuncu vətəndaşına xidməti ilə üst-üstə düşüb. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qonaqla birlikdə DOST xidmətlərindən yararlanan 1 milyonuncu şəxsi - Ələkbərova Nisəxanım İzzətulla qızını təbrik edib, ona təşəkkürnamə və hədiyyələr təqdim ediblər.

DOST-a müraciət edən milyonuncu vətəndaş yaşa görə pensiyadan ailə başçısını itirməyə görə pensiyaya keçmək üçün müraciət edib və qısa müddət ərzində müraciəti müsbət cavablandırılıb.

Nisəxanım Ələkbərova DOST mərkəzində göstərilən operativ və şəffaf xidmətdən razı qaldığını deyib, təşəkkürünü bildirib.

Sonra "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu" imzalanıb. Sənədi Sahil Babayev və Dərya Yanık imzalayıblar.

Anlaşma memorandumunun məqsədi əlilliyi olan şəxs və ahılların, uşaq və qadınların, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial rifahının təmin olunması üçün layihələr işləyib hazırlamaq, bilik, təcrübə və ən yaxşı tətbiq nümunələrini paylaşmaq, uşaqların qorunması xidmətlərini təkmilləşdirmək, ailələrə, əlilliyi olan şəxslərə, yaşlılara və uşaqlara göstərilən sosial xidmətlərin səmərəliliyini inkişaf etdirmək və artırmaqdan ibarətdir.

# Növbəti sosial islahatlar paketi üçün təkliflər hazırlanaraq təqdim ediləcək

Bu ilin birinci yarısının yekunlarına dair müşavirədə Prezident İlham Əliyevin verdiyi tapşırığa əsasən, sosial islahatların növbəti ildə də davam etdirilməsi üçün təkliflər hazırlanaraq dövlət başçısına təqdim ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə müsahibəsində əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib.

Nazir son illər sosial ödənişlərdəki ciddi artımları qeyd edib. O, son 3 ilyarım ərzində Azərbaycanda 4 milyon vətəndaşı əhatə edən 3 sosial islahat paketinin icra olunduğunu deyib.

Bunun üçün yalnız dövlət büdcəsindən əlavə olaraq 6 milyard manat, yəni ölkənin icmal büdcəsinin 20 faizindən çox vəsait ayrıldığını qeyd edib.

S.Babayev həmin dövrdə minimum əməkhaqqının 2,3 dəfə, əməkhaqqı fondunun 2,2 dəfə artdığını, əməkhaqqı fonduna əlavə 8 milyard manat yönəldildiyini bildirib.

Median əməkhaqqında 86 faiz, minimum pensiyada 2,2 dəfə, orta aylıq pensiyada 75 faiz artım baş verdiyini diqqətə çatdırıb.

Nazir sosial müavinət və təqaüdlərdə də 3,5 dəfə artım olduğunu deyib. Müavinət və təqaüd istiqaməti üzrə ayrılan illik vəsaitin 2018-ci ilə nisbətən 400 milyon manatdan 1 milyard manat artaraq 1,4 milyard manata çatdığını bildirib.

# Postmüharibə dövründə qazilərin reabilitasiyasına ciddi önəm verilib

Ötən müddət ərzində təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reabilitasiya mərkəzləri tərəfindən Vətən müharibəsinin 11 min iştirakçısına reabilitasiya və sosial-psixoloji dəstək göstərilib.

AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mediaya müsahibəsində bildirib. Nazir qeyd edib ki, əzalarını itirmiş qəhrəmanların 200-nə ən müasir 4-cü nəsil elektron tam funksional protezlər qoyulub. Ötən dövr ərzində 21 min reabilitasiya vasitəsi müharibə əlillərinə təqdim olunub.

## Azərbaycanın BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmasından 30 il ötür

# Parlaq gələcəyin təminatçıları

### Azərbaycanda uşaqların sağlam, vətənpərvər və cəmiyyətə yararlı şəkildə inkişaf etdirilməsi dövlət siyasətinin prioritetidir

**Gələcəyimiz olan uşaqların hüquq və haqlarının qorunması ən ümdə məsələlərdən biridir. Odur ki, doğulduqları gündən onları qorumaq, hüquqlarını anlatmaq, müstəqil həyata səlis addımlamaları üçün daim tədbirlər görülür.**





Hər bir dövlətin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən biri də uşaqların sağlamlığının, gələcəyinin təmin olunması istiqamətindəki məsələlərdir. Azərbaycanda da bu məsələyə hər zaman xüsusi diqqət yetirilib.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi gündən uşaq siyasəti istiqamətində olduqca mühüm tədbirlər həyata keçirilib. Azərbaycan Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Həmçinin Azərbaycan 1992-ci il iyulun 21-də Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulub və "Uşaq hüquqları haqqında" Bəyannaməsini qəbul edib.

Bu gün Azərbaycanın BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmasından 30 il ötür.

### Dövlət siyasətinin əsas prinsipləri

Ölkəmizdə 1998-ci il mayın 19-da "Uşaq hüquqları haqqında" və 1999-cu il iyunun 22-də "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilib və bu sahədə dövlət siyasətinin əsas prinsipləri müəyyən olunub. 2002-ci il 31 may tarixli "Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında əsasnamənin təsdiq edilməsi barədə" qanun qəbul edillib.

Bu bir həqiqətdir ki, Ümummilli Lider Heydər Əliyev uşaqların təhsilini, sağlamlığını hər şeydən üstün tuturdu. İstedadı ilə seçilən uşaqları duyur, onların gələcəyi üçün şərait yaradırdı. Bu siyasət son 19 ildə Prezident İlham Əliyev tərəfindən də ən yüksək səviyyədə uğurla davam etdirilib. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən də valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqların gələcəyi üçün lazımi tədbirlər görülür, onlara daim diqqət və qayğı göstərilir. Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələrin dəyəri əvəzsizdir desək, yanılmarıq.

2002-ci ildə Azərbaycan BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının iki əlavə protokoluna da qoşulub. Hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədlərinə görə uşaq sayılır. Bu şərtlə ki, həmin uşaq barəsində tətbiq edilə bilən qanuna görə, o, yetkinlik yaşına daha əvvəl çatmamış olsun. İştirakçı dövlətlər onların yurisdiksiyası daxilində olan hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onların həyata keçirilməsini təmin edir, uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, siyasi əqidəsindən və ya digər əqidələrindən, milli, etnik, yaxud sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğulduğu şəraitdən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrıseçkiliyə yol vermirlər. Eyni zamanda uşağın, onun valideynlərinin, qanuni qəyyumlarının və ya digər ailə üzvlərinin statusu, fəaliyyəti, ifadə olunan baxışları, yaxud əqidələri əsasında uşağın ayrı-seçkiliyin və cəzanın bütün formalarından müdafiə olunmasını təmin etmək üçün hər cür lazımi tədbirləri görürlər. 54 maddədən ibarət olan Konvensiyada heç bir uşaq işgəncələrə və ya rəftarın, yaxud cəzanın digər amansız, qeyri-insani və ya ləyaqəti alçaldan növlərinə məruz qalmaması, 18 yaşına çatmamış şəxslər tərəfindən törədilmiş cinayətlərə görə nə ölüm cəzası, nə də azad edilmək imkanı nəzərdə tutulmayan ömürlük həbs cəzasının kəsilməməsi nəzərdə tutulur.

Bəzi ölkələrdə uşaqlar sağlam mühitdə, gözəl şəraitdə yaşasalar da, bəzilərində isə müharibə, aclıq onların bütün həyatını əhatə edib. Müharibə gedən ölkələrdə uşaqlar təhsildən yayınır, aclığa məhkum olur, evlərini, valideynlərini itirir, eyni zamanda fiziki və psixoloji təsirlərə məruz qalırlar.

Son iki ildə pandemiya səbəbindən maddi vəziyyətin pisləşməsi dünyada aclıqdan əziyyət çəkənlərin də sayını artırıb. Birləşmiş Millətlər Təşkilatının (BMT) ərzaq və kənd təsərrüfatı təşkilatı FAO ötən il dünyadakı ac insan sayının 795 milyon olduğunu açıqlamışdı. BMT hesablamalarına əsasən, dünyada hər doqquz insandan biri aclıqdan əziyyət çəkir. Qeyd olunur ki, hər gün dünyada 18 min uşaq aclıqdan və doyunca yeməməkdən ölür. 850 milyon insan isə yarımac yaşayır.

2020-ci ildə COVID-19 pandemiyası görünməmiş qlobal sağlamlıq, humanitar, sosial-iqtisadi və insan hüquqları böhranına səbəb olub, təsirə məruz qalan uşaqların zəifliklərini artırıb. Həmçinin bu dövrdə uşaqlar təhsildən yayınıb, evdə qalmaları isə onların psixologiyasına təsir edib.

### Azərbaycanda uşaq hüquqlarının təminatı sahəsinə həssas yanaşma var

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, hər bir ölkənin gələcək inkişafı gənc nəslə göstərilən qayğıdan və onların inkişaf səviyyəsindən asılıdır. Deputat bildirir ki, Azərbaycanda uşaq hüquqlarının müdafiəsi üçün kifayət qədər konseptual əsaslar mövcuddur və onlar davamlı olaraq inkişaf etdirilir.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə qayıdışından sonra dövlət siyasətinin çox mühüm vektorunu məhz uşaq hüquqlarının təminatı sahəsində ciddi fəaliyyətin göstərilməsi təşkil edib. 1994-cü ildə Azərbaycanın BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulması ilə ölkəmizdə uşaq hüquqlarının qorunmasının konseptual əsaslarının təkmilləşdirilməsi istiqamətində xüsusi canlanma müşahidə edilib. Eyni zamanda respublikamız digər müvafiq beynəlxalq hüquqi konvensiyalara qoşulmaqla, uşaqların hüquqlarının etibarlı şəkildə təmin olunması yönündə iradəyə malik olduğunu nümayiş etdirməkdədir.

Elşad Mirbəşiroğlu deyir ki, Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" qanununda onların hüquqlarının etibarlı təmin olunması, təlim-tərbiyəsinin sağlam şəkildə təşkil olunması və yaşayışı, inkişafı üçün ən uyğun şəraitin yaradılması nəzərdə tutulur. Valideyn himayəsindən məhrum olmuş uşaqların 18 yaşına qədər dövlət himayəsi ilə təmin olunması bir daha sübut edir ki, uşaqların sağlam, cəmiyyətə yararlı inkişaf etdirilməsi dövlət siyasətinin mühüm xəttini təşkil etməkdədir. Ölkəmizdə gənc yaşlardan milli vətənpərlik hisslərinin olması, uşaqların müasir bilik və bacarıqlara yiyələnməsi üçün şərait yaradılması da uşaq siyasətinin, həmçinin onların hüquqlarının qorunmasının mühüm komponentlərini təşkil edir.

Deputat vurğulayır ki, Prezident İlham Əliyev öz fəaliyyətində uşaq hüquqlarının qorunmasını həmişə önə çəkir. Prezidentin təşəbbüsü ilə 2006-cı il fevralın 6-da Qadın Problemləri üzrə Dövlət Komitəsi əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Bu komitənin yaradılmasının əsas məqsədi ondan ibarətdir ki, uşaqlar, gənclər, sözün əsl mənasında, sağlam təməllər, vətənpərvərlik ruhu əsasında gələcəkdə öz həyatlarını uğurla qurmağa imkan verəcək bilik və bacarıqlara yiyələnmək əsasında yetişdirilsin. Bu gün ölkəmizdə uşaq hüquqlarının təmin olunması üçün olduqca həssas yanaşma var. Deputat bundan sonrakı mərhələdə də uşaq hüquqlarının daha etibarlı şəkildə qorunması üçün qanuvericilik bazasının təkmilləşdirilməsi istiqamətində addımlar atılacağını qeyd edib.

### Uşaqların müdafiəsi və inkişafı dövlətin sosial siyasətində mühüm yer tutur

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq şöbəsinin baş məsləhətçisi Könül Tağızadə qəzetimizə açıqlamasında deyib ki, "Uşaq hüquqları haqqında" Konvensiya BMT Baş Assambleyasının 44/25 saylı qətnaməsi ilə 20 noyabr 1989-cu ildə qəbul edilib, 2 sentyabr 1990-cı ildə qüvvəyə minib.

Onun sözlərinə görə, bu konvensiya BMT tərəfindən qəbul edilmiş saziş olaraq, dünyanın hər yerində yaşayan uşaqlara müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir.

Baş məsləhətçi qeyd edir ki, "Uşaq hüquqları haqqında" Konvensiyanın 54 maddəsinin hər birində uşaqların ayrı-ayrı hüquqlarından danışılır. Burada inkişaf hüquqları, müdafiə hüquqları, iştirak hüquqları və yaşamaq hüquqları əksini tapıb. O deyir ki, konvensiyanı ratifikasiya etmiş dövlətlər öhdəlikləri yerinə yetirir, BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinə hesabat və həyata keçirdikləri bütün işlər haqqında məlumat verirlər. Bu konvensiya uşaqların hüquqlarını təmin edən birinci universal kodeks olaraq, uşaq hüquqlarına dair bütün məsələləri bir sənəddə cəmləşdirib.

Könül Tağızadə bildirir ki, Azərbaycanda uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikası 21 iyul 1992-ci ildə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, 2 aprel 2002-ci ildə isə konvensiyanın iki əlavə protokoluna qoşulub.

O, Konvensiyanın icrası üzrə Azərbaycan hökumətinin dövrü hesabatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ümumiləşdirilərək Xarici İşlər Nazirliyi vasitəsilə BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinə təqdim edildiyini, hesabatlarla bağlı ölkəyə təqdim olunmuş tövsiyələrdən irəli gələn məsələlərin icrasının aidiyyəti dövlət orqanları tərəfindən həyata keçirildiyini də bildirdi.

Dövlət uşaq siyasətinin həyata keçirilməsində ən mühüm addımlardan biri də Prezidentin 2020-ci il 2 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın və 2020-ci il 27 noyabr tarixli sərəncamı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi olub.

Uşaqların hüquqlarının pozulmasına ən çox onların təhsildən uzaqlaşdırılaraq erkən nikaha, məcburi əməyə cəlb edilməsi hallarında rast gəlinir. Azərbaycanda erkən nikahın, məcburi əməyin qarşısının alınması istiqamətində daim işlər görülür. Ölkəmizdə qızlar üçün nikah yaşı 18 olsa da, bəzən onları məktəbi bitirmədən, hətta IX sinifdən məktəbdən ayıraraq müxtəlif məqsədlərlə evləndirirlər. Təbii ki, bu sahədə, əsasən valideynlərin maariflənməsinə ehtiyac var.

İrqindən, cinsindən, milliyyətindən asılı olmayaraq, hər bir uşağın təhsil almaq, sağlam mühitdə yaşamaq, qidalanmaq haqqı var. Gələcəyimizin sağlam, parlaq olması isə onların həyat şəraitindən, psixoloji və fiziki sağlamlığından asılıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Strateji tərəfdaşlığın yeni yol xəritəsi

### Azərbaycanla Avropa İttifaqı arasında imzalanan anlaşma memorandumu siyasi və ticari əlaqələrin inkişafına mühüm töhfə verəcək

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan yürütdüyü müstəqil siyasətlə xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər. Eləcə də Azərbaycanın irəli sürdüyü qlobal təşəbbüslər də təqdir edilir. Son vaxtlar Avropa İttifaqının Azərbaycanla strateji tərəfdaşlığında yeni mərhələnin başlanması da bu prosesin tərkib hissəsidir.

### İki ildə üç görüş, Avropa İttifaqının neytrallığı qorumaq missiyası

Azərbaycanla Avropa İttifaqı arasında yüksəksəviyyəli münasibətlər və əməkdaşlıq mövcuddur. 2018-ci ildə tərəflər arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi ikitərəfli əlaqələrin inkişafı üçün yeni imkanlar açıb. Avropa İttifaqı əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin və mühüm enerji layihələrinin həyata keçirilməsində rolunu hər zaman yüksək qiymətləndirib. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın bölgədə yaratdığı reallıq Avropa İttifaqı tərəfindən də təqdir edilir.

Bunu Aİ Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli Brüssel görüşləri, aparılan danışıqlarda qalib ölkə kimi Azərbaycanın diktəsinin qəbul edilməsi də bir daha təsdiqləyir. Görünən odur ki, bu qurum tarixi zəfərimizdən sonra bölgədə dayanıqlı sülhün, təhlükəsizliyin təmin olunması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində neytrallığı qorumaq şərti ilə vasitəçilik etmək istəyir.

Əlavə edək ki, Şarl Mişellin təşəbbüsü ilə son 2 ildə Brüsseldə İlham Əliyevlə (2021-ci il dekabrın 14-də, 2022-ci il aprelin 6-da və mayın 22-də) 3 görüş keçirilib. Bu görüşlərdə Azərbaycanın regionda yaratdığı reallıq təqdir edilib və Aİ sülhün, təhlükəsizliyin təmin olunması prosesində İlham Əliyevə dəstəyini nümayiş etdirib. Görüşdə Avropanın ererji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun getdikcə artdığı da vurğulanıb. Həmçinin məğlub ölkənin baş naziri Nikol Paşinyan sülh müqaviləsinin imzalanması istiqamətində İlham Əliyevin irəli sürdüyü 5 təklifi də qəbul etdiyini açıqlayıb.

İyulun 18-də isə Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri, aparılan danışıqlar, imzalanmış yeni memorandum ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi.

Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl əsasında qurulmasının nəticəsidir ki, ölkəmiz hazırda bu mötəbər beynəlxalq təşkilatın bir çox proqramlarında fəal iştirak edir. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur. Ölkəmizin enerji siyasəti bölgədə regional əməkdaşlığın genişlənməsi üçün etibarlı təminatdır.

### Avropa Parlamenti Azərbaycanın Aİ ilə münasibətlərinin inkişafına əngəl ola bilməz

Bu bir həqiqətdir ki, İlham Əliyev hər zaman yürütdüyü siyasətdə Azərbaycanın dövlət maraqlarını üstün tutub və milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrindən biri hesab edib. Bu gün də bu qətiyyətli siyasət davam etməkdədir.

İyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən İlham Əliyevin bu qurumun son illərdə ölkəmizə qarşı tutduğu mövqeyə münasibət bildirərkən səsləndirdiyi qətiyyətli fikirlər deyilənləri bir daha təsdiqləyir. Həmin görüşdə Azərbaycanın Avropa İttifaqı ilə yüksələn xətlə inkişaf edən əməkdaşlıq əlaqələrini yüksək dəyərləndirən Prezident Avropa Parlamentinin qərəzli mövqeyinə etirazını ifadə etdi.

Prezident diqqətə çatdırdı ki, Vətən müharibəsindən sonra AP tərəfindən Azərbaycana qarşı ittihamlar, təhqirlər səsləndirilib və yalan məlumatlar yayılıb. Bu da təbii ki, narahatlıq doğurmaya bilməz. Çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilib. Prezidentin söylədiyi kimi, bu da həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir. Hansı ki, müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən Qarabağ və Şərqi Zəngəzura çoxsaylı səfərlər olub. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olublar. Bir daha bəlli olub ki, işğal zamanı Azərbaycana məxsus 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılıb. Amma bu barədə bir söz belə deyilmir. Bu da AP-nin qərəzli mövqeyini ortaya qoyur. Həmçinin həmin qətnamələrin AP-də deyil, Ermənistan parlamentində qəbul edildiyi fikri formalaşır.

İlham Əliyev bir daha Azərbaycanın mövqeyini açıqlayaraq qeyd edib ki, ölkəmiz Avropa ilə yaxın münasibətlər qurmaq istəyir və son görüşlər, imzalanan sənədlər bunun bariz təcəssümüdür. Lakin Avropa Parlamenti belə bir yol seçməyi düşünürsə, bu, onların seçimidir. Amma onlar parlamentin bəzi üzvlərinin cəhdlərinə baxmayaraq, Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər.

Göründüyü kimi, milli maraqlarımızın keşiyində duran İlham Əliyev Avropa Parlamentinin nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirdiyi tənqidi fikirlər bu qurumda zaman-zaman ayrı-ayrı lobbi qruplarının ölkəmizə qarşı həyata keçirməyə çalışdığı təxribatlara, qəbul olunmuş qeyri-obyektiv sənədlərə münasibətdir.

Prezidentin də söylədiyi kimi, Azərbaycan Avropa Parlamenti ilə də sağlam və qarşılıqlı faydalı əsasda münasibətləri inkişaf etdirməyə hazırdır. Amma bu qurum Aİ-Azərbaycan əlaqələrinin inkişafı yolunda problem yaratmamalıdır, ilk növbədə ümumavropa maraqlarından çıxış etməli, Avropa İttifaqının portnyorları ilə konstruktiv münasibətlər formalaşdırmalı və inkişaf etdirməlidir.

### Mühüm ticarət tərəfdaşı

Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər mühüm tərəfdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumu isə bu sahədə əməkdaşlığın daha da yüksək səviyyəyə çatmasına əhəmiyyətli töhfədir.

İlham Əliyevin dediyi kimi, Azərbaycanın reallaşdırdığı böyük layihələr Avropanın enerji xəritəsini tamamilə dəyişib, enerji təhlükəsizliyi məsələləri hazırda heç vaxt olmadığı qədər mühüm önəm daşıyır. İmzalanan memorandum isə gələcək üçün mühüm yol xəritəsi hesab edilir.

Həmçinin Azərbaycan Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada münasibətlər qurur. Çünki Avropa İttifaqı Azərbaycan üçün əsas ticarət tərəfdaşıdır. Bu da bir daha təsdiq edir ki, münasibətlərin böyük gələcəyi var və planlaşdırılan bütün məsələlərin həllinə nail olunacağına heç bir şübhə yoxdur.

Bir sözlə, Bakıda imzalanan anlaşma memorandumu Avropa İttifaqı-Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafına böyük töhfə verməklə yanaşı, siyasi müstəvidə də geniş perspektivlərdən xəbər verir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Mətbuatın və sosial şəbəkənin "muştuluq" xəbərləri

Azərbaycan xalqının özünəməxsus muştuluq xəbərləri var!

Yeni evlənmiş gənclərin övladı dünyaya gələndə qardaş-bacı, ata-ana, dayı-bibi bir-birini muştuluqlayar, hətta muştuluğa hədiyyə kimi nəsə də alarlar.

Yaxud hərbi xidmətdən, döyüş meydanından qayıdan olanda hamı ata-anaya, həyat yoldaşına və övladlara gözaydınlığı verər.

**Bunlar hamıya xoş gələn, sevinc və fərəh gətirən xəbərlərdir.**

**Ölüm xəbəri isə xoş xəbər sayılmır!**

*İnsanlar hər dəfə bu xəbəri bir-birilərinə kədərlə, yavaş səslə çatdırırlar.*

*Qabaqcadan "başın sağ olsun" deyə müsahiblərini bu qəfil hadisəyə bir növ hazırlayırlar.*

**Ən ağır, ən çətin məsələ də övladın, ata-ananın, ərin, bacı-qardaşın ölüm xəbərinin bir-birilərinə çatdırılmasıdır.**

**Çünki ölüm xəbərini verən adamlar bəzən yaddaşlarda yaxşı xatirə buraxaraq qalmırlar.**

Ağıllı, dünyagörmüş insanlar imkan dairəsində "lo xəbər" verməkdən uzaq durmağa çalışırlar.

❖ ❖ ❖

*İnternet sanki dünyanı dəyişib!*

*Dünya bir yana, xalqımızın milli mentalitetinə də elə bil əl gəzdirib!*

**Bəli, bu gün sosial şəbəkə istifadəçiləri, elektron saytlar çox böyük həvəs və operativliklə ölüm xəbərini yayırlar!**

**Bircə qalır muştuluq istəmələri!**

Ər boşadığı keçmiş arvadını öldürür - bir anda bütün sayt və sosial şəbəkə ondan yazır!

Arvad ərini öldürür - "əsrin sensasiyası" baş veribmiş kimi, hamı birinci olmağa çalışır.

Sanki ailə faciəsi baş verməyib!

Sanki günahsız uşaqlar yetim qalmayıb!

Sanki valideynlərindən biri həbsxanaya, digəri o biri dünyaya gedənlərin övladları ömürlük valideyn qayğısından, valideyn məsuliyyətindən məhrum olmayıblar və ömürlərini kiminsə qoltuğunda (lap qoy bu adam nənə, xala, bibi olsun) keçirməyəcək, yaxud uşaq evlərində valideynsiz böyüməyəcəklər!

Nə olub:

*Şad xəbərdir?!*

*Xoş xəbərdir?!*

*Yayılası, dilə gətiriləsi xəbərdir?!*

*Ən nəhayət, ürəkaçan xəbərdir?!*

*Heç görəsən, belə xəbərləri tirajlayanlar bu barədə düşünürlərmi?!*

❖ ❖ ❖

Sosial şəbəkə istifadəçiləri və saytlar Allahın öz bəndələrinə qadağan etdiyi özünə qəsdetmə barədə xəbərlərə - intihar xəbərlərinə də xüsusi aludəçilik göstərirlər!

Hətta deyərdik ki, aludəçilikdən də o tərəfə keçirlər, az qala hərislik göstərirlər.

Həm də təkcə xəbəri "həvəslə" dərc etmək, tirajlamaqla kifayətlənmirlər!

Ağılları kəsən "şərh"ləri də verirlər!

Öz ehtimallarını həqiqət kimi sırımağa çalışırlar!

Tutaq ki, ana övladı, yaxud övladları ilə birgə özünü çoxmərtəbəli binadan atıb!

Bu, dərhal cəmiyyətə təqdim ediləsi xəbərdirmi?

Yoxsa faciədir, özünə və övladına qarşı qəddarlıqdır!

Qazi özünü asır, yaxud yandırır!

Bu, tez-tələsik yayılmalı xəbərdirmi?

Yoxsa hamını sarsıdan itkidir!

Bunlardan sensasiya düzəltmək, yaxud xalqına, dövlətinə qarşı yönəltmək, istifadə etmək olarmı?

Yox, çünki o xəbərləri yazanlar özünə qıyanların heç biri ilə nə görüşüb, nə də danışıb!

Ağızdan-ağıza yayılan söz-söhbət əsasında mülahizələr söyləyirlər!

Həmin mülahizələrin, tənqidin bir ünvanı da dövlət olur!

Bu halda dövlətin nə təqsiri!

**Məgər müstəqil Azərbaycan dövləti öz vətəndaşının yaxşı yaşaması üçün mümkün olan hər şeyi etmirmi?**

**Dünyanın harasında Azərbaycanda olduğu qədər şəhid ailəsinə, müharibə əlillərinə və veteranlara qayğı göstərilir - təmirli mənzil, ev tikilib verilir, avtomobil hədiyyə olunur, pensiya kəsilir, işə düzəldilir, müalicə olunur, biznes qurmasına yardım göstərilir və s.**

**Heç yerdə!**

Əgər kimsə intihar edirsə, bu ilk növbədə onun özünün, daha sonra doğmalarının, əzizlərinin, yaxınlarının kədəri, itkisidir!

*İntihar xəbəri sensasiya mövzusu deyil!*

*İntihar xəbəri tez-tələsik tirajlanası informasiya deyil!*

*İntihar xəbəri müjdə kimi yayılası xəbər deyil!*

**Qurtarın bu adətdən, ay adını jurnalist qoyanlar!**

**Azərbaycan Jurnalistinin Peşə Davranışı qaydalarını bir də oxuyun, orada göstərildiyi kimi, obyektiv, qərəzsiz, doğruçu və düzgün olun.**

**Tərgidin bu vərdişi, ay sosial şəbəkə istifadəçiləri!**

**İntihar xəbərlərini paylaşaraq həqiqətə uyğun gəlməyən şərhlər yazmaq yaxşı xasiyyət deyil!**

Özünüzü həyatı vaxtsız tərk edənlərin doğmalarının, dostlarının, qohumlarının yerinə qoyun, görün faciəvi xəbərləri bu cürə yaymaq, hallandırmaq xoşagələn işdirmi?!

*Qurtarmaq lazımdır ölüm xəbərlərini yaymaq şakərindən!*

*Qurtarmaq lazımdır intiharlardan yazıb müzakirələr açmaq adətindən!*

*Bəsdirin!*

**Gəlin, qələmimizi, sözlərimizi xoş, könülaçan hadisələrə yönəldək!**

**Gəlin, insan faciəsindən sensasiya düzəltməyə can atmayaq!**

**Gəlin, sayt və sosial şəbəkələri intihar, ölüm xəbərlərindən azad edək!**

Bu, daha ağıllı, peşəkar və xeyirxah addım olar...

**Bəxtiyar SADIQOV**

# İlham Əliyevin praqmatik iqtisadi islahatlarının nəticələri göz qabağındadır

## Dünya iqtisadi tənəzzülün astanasında, Azərbaycan isə dinamik inkişafdadır

Azərbaycan bu gün Cənubi Qafqazın inkişaf etmiş sənaye ölkəsidir. Regionda istehsal olunan sənaye məhsullarının 80 faizi ölkəmizin payına düşür. Təkcə Sumqayıt şəhərində iki qonşu ölkədəkindən çox məhsul istehsal olunur.

Ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin inkişafı üçün çox iş görülüb. Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar sayəsində bu sahədə ciddi dönüş yaranıb. Sahibkarlığın inkişafı, özəl sektorun məhsul istehsalında çəkisinin artması da iqtisadi sahədə aparılan islahatlarla bağlıdır. Bu baxımdan ölkə üzrə sənaye məhsullarının 80 faizindən çoxunun özəl sektorda istehsal olunması təsadüfi deyil.

Prezident İlham Əliyev cari ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə demişdir: "O ki qaldı iqtisadi artıma, əlbəttə, biz bunu hər dəfə iki yerə bölürük - iqtisadi artım və qeyri-neft iqtisadiyyatının artımı. Hər iki istiqamət üzrə yaxşı nəticələr var. İqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye sahəsində 11,5 faiz artıb. Çox yaxşı nəticələrdir və bu nəticələri biz real həyatda da görürük... Bizim xarici ticarətimiz də böyük dərəcədə artıb - haradasa 70 faizdən çox. İxracımız 2 dəfədən çox artıb. Qeyri-neft ixracımız 25 faizdən çox artıb. Xarici ticarət balansının müsbət saldosu 6 ayda 12,1 milyard dollardır. Bütün bu rəqəmlər hər bir ölkə üçün qürur mənbəyi ola bilər. Keçən il iyulun 1-də bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 16,6 faizini təşkil edirdi. Bu da dünya miqyasında ən gözəl nəticələrdən biri sayıla bilərdi və əslində, belədir".

Azərbaycanın sənaye ölkəsinə çevrilməsi üçün görülən işlər hələ başa çatmayıb, proses davam edir. Lakin indidən demək olar ki, bu sahədə böyük uğurlarımız var. Təkcə cari ilin yanvar-iyun aylarında qeyri-neft sektorunun özəl bölməsindən vergi daxilolmaları 35 faizdən çox artmışdır. Başqa fakt: özəl bölmənin qeyri neft-qaz vergi daxilolmalarında xüsusi çəkisi 75 faizi üstələyir.

Məlumdur ki, son vaxtlar Qərb-Rusiya qarşıdurmasının gərginləşməsi dünya iqtisadiyyatında mənfi tendensiyaların yaranmasına səbəb olub. Hətta o dərəcədə ki, dünyanın növbəti böhran astanasında olduğunu deyənlər də var. Prezident İlham Əliyev qeyd edilən müşavirədə bu barədə demişdir:: "...indi çox böyük ehtimallar var ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq. Yəni resessiya haqqında mötəbər beynəlxalq qurumlar, maliyyə qurumları artıq bir qaçılmaz fakt kimi danışırlar. Biz də buna hazır olmalıyıq".

Qeyd edək ki, Prezidentin bu cür həyəcan təbili çalması təsadüfi deyil. Beynəlxalq Valyuta Fondu 2021-ci ildə qlobal iqtisadiyyatın 6,1 faizlik artımının cari və gələn illər 3,6 faizə enəcəyini proqnozlaşdırır. Bu, azmış kimi ekspertlər dünya üzrə ÜDM istehsalının orta hesabla 3,3 faiz azalacağını deyirlər. Amma bu da hələ hamısı deyil. Nəzərə alsaq ki, Rusiya və Ukrayna dünya aqrar sektorunda aparıcı ölkələrdən olaraq bütün ərzaq kalorisinin ixracında 12 faizlik paya malikdirlər, o cümlədən taxıl, qarğıdalı və günəbaxan yağının əsas ixracatçısıdırlar, onda vəziyyətin gərginliyi barədə deyilənlərin acı həqiqət olduğuna şübhə yeri qalmır. Necə şübhə yeri qalar ki, Şimali Afrika və Yaxın Şərq ölkələri istehlak etdikləri buğdanın yarısını Rusiya və Ukraynadan alırlar. Təkcə Ukrayna yaxın aylaracan özündən əlavə 400 milyon insanın taxıla olan tələbatını ödəyirdi. Rusiya isə dünyanın iri mineral gübrə ixracatçısıdır və indi o, sanksiyalar səbəbindən həmin məhsulu xarici bazarlara çıxara bilmir. Bütün bunlarsa, təbii ki, nəticəsiz qalmır. FAO (BMT-nin Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) cari ilin iyun ayı üçün ərzağın qiymətini orta hesabla 154,2 bəndə qaldırıb ki, bu da bir il əvvəldəkindən 29 bənd (23,1 faiz) çoxdur.

Bütün bunların fonunda ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar, uzaqgörənliklə görülən tədbirlər sayəsində dinamik inkişaf davam edir. Cari ilin birinci yarısında ölkə iqtisadiyyatında yüksək artım tempinin müşahidə olunması da bunun nəticəsidir. Qeyd edilən dövrdə qeyri neft-qaz sektorunun prioritet sahələri arasında əlavə dəyər qeyri neft-qaz sənayesində 11, o cümlədən qeyri neft-qaz emalı sənayesində 15, nəqliyyat sektorunda 27, turizm və ictimai iaşədə 86, informasiya və rabitə sektorunda 14 faiz artmışdır.

Bu gün qeyri neft-qaz sektorunda məhsul istehsalında və ixracında sənaye zonaları mühüm rol oynayır. Artıq inamla demək olar ki, həmin müəssisələr Azərbaycan sənayesinin flaqmanlarıdır. Təsadüfi deyil ki, cari ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə sənaye zonalarında istehsal 53 faiz, həmin zonalarda istehsal olunan məhsulların ixracı isə 2 dəfə artmışdır. Bundan əlavə, hesabat dövründə qeyri neft-qaz məhsullarının ixracının 60 faizini sənaye məhsulları təşkil etmişdir.

Qeyri neft-qaz sənayesinin inkişafı isə ölkənin gəlirlərinin artması dövlət büdcəsinə daha çox vəsaitin daxil olması deməkdir. Dövlətin maliyyə imkanlarının artması da öz növbəsində digər məsələlərin həllinə geniş imkanlar açır. Bu baxımdan cari ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə vergi mədaxilinin 49 faizdən çox artması diqqətçəkən faktdır. Qeyri neft-qaz sektorundan daxil olan vergilərə gəldikdə, bu göstərici də xeyli yüksəkdir - 32 faizdən çox.

Buna baxmayaraq, dövlət tərəfindən sahibkarlığa verilən dəstək davam edir. Məsələn, büdcə dürüstləşməsi prosesində kiçik və orta sahibkarlara veriləcək güzəştli kreditlərin həcmi xeyli artırılıb. Kreditlər verilərkən isə ölkənin ümumi inkişafı nəzərə alınır. Verilən kreditlərin 94 faizinin regionlarda fəaliyyət göstərən sahibkarların layihələrinin maliyyələşdirilməsinə yönəldilməsi də bu siyasətin nəticəsidir. Üstəlik, ölkənin ərzaq təhlükəsizliyinin əhəmiyyəti nəzərə alınaraq, bütün kreditlərin 76 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan sahibkarlara verilib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# KİV intihar xəbərlərinə necə yanaşmalıdır?

## Medianın gücündən düzgün istifadə olunmalıdır

Media cəmiyyətə və ictimai rəyə birbaşa təsir edən sosial-siyasi institutdur. KİV öz fəaliyyətində əsas prinsiplərini rəhbər tutmalı, habelə cəmiyyətdə olan çatışmazlıqları göstərməlidir. Təsadüfi deyil ki, onun vasitəsilə problemlər ictimailəşir, həllini tapır. Bu baxımdan ictimai rəydə medianın rolu böyük və danılmazdır.

Az qala hər gün medianın xəbər lentlərində intiharlar barədə məlumatlarla rastlaşırıq. Lakin mütəxəssislər hesab edirlər ki, bu tip xəbərlərin yayımlanması ictimai rəyə əks-təsir göstərir və intiharların artmasına səbəb olur.

Buna görədir ki. Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi açıqlamasında bildirir ki, intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur: "Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi, intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır. İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz. Zorakılıq, intihar və sairə bu kimi insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir".

### Xəbərlərin işıqlandırılmasının standartları var

Mediada intihar hadisələrinin işıqlandırılmasında müəyyən məhdudiyyətlər qoyulmalı, intihar xəbərlərində şəxs və hadisənin detalları barədə təfərrüat verilməməlidir. Bu məsələ ilə bağlı Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli qəzetimizə açıqlamasında bildirdi ki, intihar xəbərlərinin, ümumiyyətlə, kriminal xəbərlərin işıqlandırılmasının standartları var. Bu standartlar media qanunvericiliyində, eyni zamanda etik kodeksdə öz əksini tapıb. Prinsipə əsasən, intihar, terror xəbərləri elə hazırlanmalıdır ki, bu, təşviqedici amilə, başqaları üçün nümunə olacaq xəbərə çevrilməsin. Əksinə, həmin məsələ barədə cəmiyyətdə qınaq və bu halın təkrarlanmaması üçün əsas yaratsın: "Təəssüf ki, son vaxtlar Azərbaycanda KİV subyektlərində, eyni zamanda sosial media hesablarından paylaşılan xəbərlərdə bunun tamamilə əksini görürük. İntiharlarla bağlı xəbərlər oxuyanda insanda belə təəssürat yaranır ki, sanki həmin şəxsin bundan başqa çıxış yolu olmayıb".

Müşfiq Ələsgərlinin sözlərinə görə, belə yanaşma ilə intihara haqq qazandırmış olurlar ki, bu da həm etik kodeksə, həm də qanunvericiliyə ziddir. Jurnalistlər həmin intihar hadisəsini subyektiv fikirləri və intihar hekayəsi ilə bəzəyirlər. Bu isə əlavə olaraq cəlbedicilik yaradır və başqaları üçün təşviqedici amilə çevrilir.

### İnformasiya prinsipləri pozulmamalıdır

Mətbuat Şurasının sədr müavini deyir ki, intiharın hansı yolla törədildiyi, burada hansı vasitələrdən istifadə olunduğu açıqlanmamalıdır, ona görə ki, bu fikrə düşən başqa şəxslər həmin üsullardan istifadə etməsinlər. O, təəssüflə qeyd edir ki, son vaxtlar yayılan xəbərlərdə bu prinsip pozulur. Digər narahatlıq doğuran məsələlərdən biri də intihar xəbərlərinin müəyyən siyasi məqsədlər və ya "like" toplamaq üçün istifadə olunmasıdır. Azərbaycanda intihar problemlərinin kökünün guya sosial problemlərlə bağlanmasına cəhd göstərilir ki, bu da kökündən yanlışdır. Dünyanın analitik mərkəzlərinin dərc etdiyi hesabatlarda dünyanın sosial və rifah halı baxımından kifayət qədər inkişaf etmiş ölkələrində də intiharların yüksək səviyyədə olduğu göstərilir. Məsələn, ABŞ intiharların sayına görə, dünyada 23-cü, Belçika 17-ci, Fransa isə 37-ci yerdədir. Bunlar kifayət qədər inkişaf etmiş ölkələrdir. Deməli, burada problem təkcə sosial məsələlərlə bağlı deyil.

Müşfiq Ələsgərli bildirir ki, insanlar çətinliyə düşəndə müxtəlif yollar axtarır. Onun sözlərinə görə, çətinlik insanı mətinləşdirmək üçün mübarizə vasitəsidir. Biz məsələnin bu tərəfini qabartmalı və təbliğ etməliyik. İnsan çətinlikdən qorxmamalı, möhkəmlənməli, ona qalib gəlmək üçün mübarizə aparmalıdır. Çox təəssüf ki, Azərbaycan mediasında bu prinsiplər son vaxtlar bir qədər pozulur. Haqlı olaraq bu, ictimai qınaq yaradır. Media ictimaiyyəti olaraq çağırış edirik ki, bu cür yersiz standartdan kənar xəbərlərin yayımlanması dayandırılsın.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Gözdən əlilliyi olan şəxslərin sosial təminatı gücləndirilir

Həssas əhali qruplarının, o cümlədən gözdən əlilliyi olan şəxslərin sosial təminatı ilə əlaqədar işlər davamlı olaraq aparılır. Gözdən əlilliyi olan vətəndaşların reabilitasiyası və rifah halının yaxşılaşdırılması sahəsində mühüm addımlar atılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən gözdən əlilliyi olan şəxslər əlilliyə görə əmək pensiyası və ya müavinətlə, həmçinin onlardan 1-ci dərəcə əlilliyi olanlar həmin sosial təminat növləri ilə yanaşı, Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, sosial islahatlara uyğun olaraq gözdən əlilliyi olanların sosial ödənişlərinin məbləği ötən dövrdə dəfələrlə artırılıb, onlar üçün bir sıra güzəşt və imtiyazlar nəzərdə tutulub.

Nazirliyin sifarişləri əsasında icra olunan layihələrlə həmin kateqoriyadan olan şəxslərin reabilitasiya xidmətləri ilə təminatı həyata keçirilir.

Gözdən əlilliyi olan şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması işləri də davam etdirilir. Son illərdə onlar üçün Bakının Nərimanov rayonunda 132 mənzildən ibarət yaşayış binası tikilərək istifadəyə verilib.

Son iki ildə 400-dək görmə məhdudiyyəti olan şəxs mənzillərlə təmin olunub. Həmin kateqoriyadan olan vətəndaşların sosial-məişət şəraitinin yaxşılaşdırılması davam etdirilir.

# Acarıstandan gələn qonaqlarla görüş keçirilib

Gürcüstanın Acarıstan Muxtar Respublikasından bir qrup uşaq və onların valideynləri iyulun 5-dən xüsusi proqram çərçivəsində muxtar respublikadakı Duzdağ Fizioterapiya Mərkəzində müalicə alırlar.



Acarıstanlı qonaqlar qısa zamanda müalicələri ilə bağlı yaxşı nəticələr əldə ediblər. İyulun 19-da Acarıstana yola salınan qonaqlarla səmimi görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Naxçıvan şəhərindəki "Saat meydanı" turistik istirahət mərkəzində yerləşən "Batumi" restoranında təşkil olunan görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov Azərbaycan ilə Gürcüstan arasındakı qədim dostluq, qardaşlıq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən danışıb. Çay süfrəsi arxasında təşkil edilən görüşdə bildirilib ki, Naxçıvan və Acarıstan Muxtar respublikaları arasında əlaqələrin inkişaf perspektivlərinə uyğun olaraq uşaqların müalicəsinə aid proqramların həyata keçirilməsi, həmçinin müxtəlif müalicə və reabilitasiya mərkəzləri arasındakı əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 5-də Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfər edən zaman muxtar respublikanın hökumət rəhbəri ilə görüşdə də hər iki ölkə arasındakı əməkdaşlığa uyğun olaraq 2012-ci ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulduğu vurğulanıb. İki dost muxtar respublika arasındakı əlaqələrin hazırkı səviyyəsi onu deməyə əsas verir ki, qardaşlıq münasibətləri hər iki tərəfdən qarşılıqlı səylərlə daha da dərinləşib.

Seymur Talıbov muxtar respublikaya müalicə məqsədilə gələn qonaqların cəlb olunduqları müalicədən sonra səhhətlərində baş verən irəliləyişlərlə də maraqlanıb.

Görüş zamanı valideynlər Nargis Jordaniya və Veriko Takidze onlar üçün yaradılan şəraitə görə minnətdarlıq edib, hər iki muxtar respublika arasındakı dostluq münasibətlərindən danışıblar.

Sonra acarıstanlı uşaqlara və onların valideynlərinə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, qonaqlar Acarıstan Muxtar Respublikasına yola salınıblar.

## 22 İyul Milli Mətbuat Günüdür

# Mətbuatımızın istinadgahı - Həsən bəy Zərdabi

**Vəsiyyətinə əməl etmədilər. Yaddan çıxdığına görə yox, onun bircə sözü, kəlamı da unudulan deyildi. Səbəbi başqaydı...**

Ölümündən bir neçə gün qabaq yazmışdı vəsiyyətini. Yenə özündən savayı hər kəsi düşünmüşdü. Və bir təntənəli dəfn mərasimini də özünə qıymamışdı. "Sizdən xahiş edirəm, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı…"

Bu, Həsən bəy Zərdabinin son arzusu, son umacağıydı. Ömrü boyu çox sınaqlarla qarşılaşdı, həyatı mücadilələrdə, mübarizələrdə keçdi. Vətəninin, millətdaşlarının gerilikdən, ətalətdən və əsarətdən qurtulmasına səy göstərdi. Bu məqsədlə yurddaşlarının o vaxtadək üz tutmadıqları, getmədikləri yolları seçdi. Birincilərin qisməti isə hər zaman alqışlanmaq, mükafatlar, təltiflər və təriflər olmur. Həsən bəy Zərdabinin keçdiyi həyat yolu bunun acı bir örnəyi idi.

### Zəkası və istedadı ilə uşaqlıq illərindən seçilib

O, Şamaxı quberniyası Göyçay qəzasının Zərdab kəndində dünyaya gəldi. Yeddi-səkkiz yaşlarında atası Səlim bəy onu mədrəsəyə apardı. Ancaq Səlim bəyin çox istedadlı, zəkalı və iti hafizəli oğlu ilahiyyata maraq göstərmədi. Atası 1852-ci ildə onu Şamaxıdakı ibtidai rus məktəbinə yazdırdı. Məktəbin buraxılış imtahanında Qafqaz Təhsil İdarəsi müdirinin diqqətini çəkən Həsən bəy onun təqdimatı ilə dövlət vəsaiti hesabına Birinci Tiflis Gimnaziyasına daxil oldu. 1861-ci ildə həmin məktəbi uğurla başa vurdu. Moskva Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin təbiət elmləri şöbəsinə daxil oldu. Yenə fərqləndi. "Dövlət təqaüdçüsü" statusunu aldı. Bu savadlı, oxuyub öyrənməyə marağı tükənməz olan gənc universitetin rektoru, tarixçi Sergey Mixayloviç Solovyovun hörmətini qazandı. Dostlaşdılar. Həsən bəy Solovyovun evinə dəvət olunmağa başlandı. Rektorun qızını tanıdı. Bir-birlərini sevdilər. Həsən bəy 1865-ci ildə universiteti təhsildə ən yüksək müvəffəqiyyətə və əxlaqa görə verilən namizəd diplomu ilə bitirən ilk azərbaycanlı oldu. Moskvada qalıb-işləmək təklifi aldı. Vəd edilənlər cəlbedici idi. Sevdiyi qızla evlənə, Moskvanın kübar cəmiyyətində tanınıb rahat şəraitdə yaşaya, çalışa bilərdi. Gənc Həsən bəy bütün bunları düşündü və qərarını verdi. Ölkəsini, millətini işıqlı sabaha aparanlara ehtiyac vardı. Və Həsən bəy geri döndü. Reallıq olduqca acınacaqlı idi. Vətəni sanki bitib-tükənməyən problemlərin məngənəsinə salınmışdı. Yurddaşlarının əksəriyyəti cahil idi, dövrün tələblərini anlamır, çoxu anlamaq da istəmirdi.

Həsən bəy Tiflisdə Torpaq Palatasında, Bakıda Quberniya İdarəsində, Qubada məhkəmədə işlədi, məşəqqətlər çəkdi, sui-qəsdlə üzləşdi. 1869-cu ildə çətinliklə də olsa, Bakı Realnı Gimnaziyasına təbiət tarixi müəllimi təyin edildi. O, Qafqazda fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər arasında ali təhsilli ilk və tək azərbaycanlı oldu. Azərbaycanlı şagirdlərin yox dərəcəsində olduğu məktəbə millət övladlarını cəlb etməyə çalışdı. Yoxsul, kimsəsiz uşaqların təhsilinə yardım göstərilməsi üçün müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda "Cəmiyyəti-xeyriyyə" yaratdı. Gimnaziyada təhsil alan şagirdləri - Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlov Gorani ilə Azərbaycan şəhərlərini, kəndlərini gəzib, "Cəmiyyəti-xeyriyyə"yə üzvlər yazdırdı. Toplanan 1600 manatla 2 yoxsul və kimsəsiz şagirdin təhsil haqqı ödənildi.

### Həsən bəy Zərdabinin keşməkeşli ömrünün cəfakeş yoldaşı - Hənifə xanım

1872-ci ildə "Qafqaz" qəzetində Tiflis "Müqəddəs Nina" Qadın Gimnaziyasını bitirən qızların siyahısında Hənifə Abayeva adlı müsəlman, türk qızının adını oxudu. Onunla tanış olmaq üçün Tiflisə yollandı. Gimnaziyada Hənifə xanımla görüşdü. Qızın ağlına, düşüncələrinə heyran qaldı. Həsən bəy Hənifə xanıma evlənmək təklifi etdi. Razılığını aldı. Məktəbə dəvət olunan molla kəbinlərini kəsdi. Həsən bəy gənc xanımı ilə Bakıya döndü. O gündən keşməkeşli ömür yolunda tək addımlamadı. Hənifə xanım Həsən bəyə həyat yoldaşı, dost, sirdaş oldu.

### Sözün qüdrətinə sonsuz inamla bünövrəsi qoyulan milli mətbuatımız

Həsən bəy Zərdabi mətbuatın əhəmiyyətini yaxşı bilirdi. Odur ki, qəzet açmaq ən ümdə arzularından biri idi. Mətbu orqan yaratmağın çox ağır, müşkül olduğu, böyük zəhmət, dözüm, səbir tələb etdiyi vaxtda fəaliyyətə başladı. Çar imperiyası üçün müstəmləkəsi altında olan ölkələrdə, xüsusilə müsəlmanların, türklərin yaşadıqları yerlərdə maarifin, mətbuatın inkişafı arzuolunan deyildi.




Bu səbəbdən Azərbaycan mətbuatsız, əhalisinin böyük əksəriyyəti savadsız idi. Ozamankı vəziyyətdən çıxış yolu axtarışını Həsən bəy sonralar bunu belə təsvir edəcəkdi: "Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın!.."

Çarizmin müvafiq idarələrinə ünvanladığı məktublara müsbət cavab verilmirdi. Həsən bəy sonralar yazacaqdı: "Pul yox, yazıçı yoldaş yox, çapxana yox, hürüfat yox. Dövlət tərəfindən izn almaq da ki, bu, böyük bəladır"... Bakı valisi Staroselski senzura məsələsini öhdəsinə götürdü. Qəzetin nəşrinə icazə alındı. Həsən bəy İstanbuldan hürufat gətirtdi. Axır ki, Həsən bəy Zərdabi 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin ilk sayının işıq üzü görməsinə nail oldu.

O, sözün qüdrətinə sonsuz inamı ilə milli mətbuatın bünövrəsini qoydu. Bu inam və etiqadla yazdı: "Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir. Habelə söz də, ələlxüsus, doğru söz mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər. Belədə qəzetə çıxarmaqdan savay bir qeyri-əlac yoxdur ki, o kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar...".

Yazıb-oxumağı bacaranların az olduğu bir məmləkətdə qəzet çap edirdi Həsən bəy Zərdabi. Yaşadığı mühitin, gördüyü mənzərələrin aşıladığı ümidsizlikləri, bədbinlikləri mübariz ruhuna yaxın buraxmadan yandırdığı mətbuat işığının sönməməsinə səy göstərirdi. "Əkinçi"nin ilk sayında yazırdı: "Qəzeti müsəlmanlar üçün vacib bilib onun zəhmətini və zərərini qəbul edib başlayırıq və müsəlmanların anlayan və pirşov kəslərindən iltimas edirik ki, xalqa bu qəzeti oxumağa mane olmasınlar, bəlkə səy etsinlər ki, onu oxuyan çox olsun".

Ana dilində ilk qəzetin nəşrə başladğı gün Həsən bəy Zərdabinin halını Hənifə xanım belə təsvir edib: "Həsən bəyin gözləri sevincdən yaşarmışdı. Olduqca həyəcanlı vəziyyətdə evə gəldi. Həmin gün onun həyatının ən xoşbəxt anları idi".

Bu xəbər Azərbaycanın digər vətənpərvər, millətsevər övladlarını - Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgərağa Gorani və başqalarını da çox sevindirdi. Onlar "Əkinçi"nin fəaliyyəti üçün köməklərini əsirgəmədilər.

"Əkinçi" və onun baş redaktoru Həsən bəy Zərdabi barəsində çar idarələrinə danoslar göndərirdilər. Təəssüf ki, danosçular arasında öz millətimizdən olanlar da vardı. "Əkinçi"nin ilk sayını alan polkovnik Əlibəy Əlixanov təəssüfləndiyini bildirmişdi: "Təəssüf eyləyirəm redaktor nə üçün bilmir ki, öz çarına sədaqətlə xidmət edən bir nökər hökumət tərəfindən buraxılmayan bir qəzeti oxumaz".

### "Doğrusu, siz əsl qəhrəmansınız!"

Milli mətbuatımızın ilkinin nəşri getdikcə çətinləşirdi. Mətbəədə hürufat çatmır, olanlar köhnəlirdi. Müxbirlərinin sayı yetərli deyildi. Həsən bəy yazırdı: "Köməyimiz az olduğundan və kənar yerlər bir yana, Bakıda baş verən mühüm hadisələrdən də bəziləri bizə vaxtlı-vaxtında gəlib çatmırdı. Xarici xəbərləri isə rus, İran, türk, Orta Asiya qəzetlərindən götürməli olurduq". Məqalə və xəbərləri Azərbaycan dilinə özü tərcümə edən, çox zaman korrektor işini də görən Həsən bəy yazırdı: "Dünyada hər qəzeti beş, ya on adam inşa edir: onu çap edən, hərflərini düzən, qələtlərini düzəldən başqa kəslər olur. Amma bu işlərin hamısını gərək mən özüm görüm... Ey bizlərə diqqət edənlər, bu qəzetin kəsrini görəndə gülməyin. Gülmək yeri deyil, siz ağlayın ki, biz müsəlmanın bircə qəzeti də basdırmağa adamı yoxdur".

"Əkinçi"nin vəziyyəti Qafqaz xalqlarının xeyirxahı kimi tanınan Staroselski Bakıdan gedəndən sonra daha da ağırlaşdı. Zərdabi yazırdı ki, müsəlmanların düşmənləri Staroselskinin vaxtında bir iş görə bilmirdilər, hər tərəfdən "Əkinçi"nin üstə tökülüb onun bağlanmasına səy edirdilər. Xüsusilə 1877-ci ildə Rusiya-Türkiyə müharibəsinin başlanması, Dağıstanda üsyanların baş verməsi "Əkinçi"yə və onun "siyasi cəhətdən təhlükəli və etibarsız" elan olunmuş baş redaktoruna qarşı senzor nəzarətinin gücləndirilməsi ilə nəticələndi, 1906-cı ildə Həsən bəy həmin günləri belə xatırladı: "Bir gün Nəcəf bəy Vəzirovun məqaləsini ki, Moskvadan göndərmişdi, vermişdim düzməyə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub onları elm, təhsil almağa çağırırdı. Senzor qol çəkib çap olmağa izin vermişdi. Qəzet çap olub paylanandan sonra qubernatorun hökmünə görə, o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır. Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri-mənası var. Ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri-nömrə çap edəsən. Cavab verdim ki, qeyri-nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb payladı. Çünki nömrə mənim adımdan çıxmışdı, mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzet çıxarmasınlar".

"Əkinçi"nin 56 sayı işıq üzü gördü. 1877-ci il sentyabrın 29-da qəzetin fəaliyyətinə son qoyuldu. Ancaq xalqın maarifi, mədəniyyəti, anadilli məktəblərin, mətbu orqanların açılması yolunda "Əkinçi"nin gördüyü işləri XIX əsrin sonları, XX əsrin əvvəllərində "Ziya" və "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Molla Nəsrəddin" və başqa mətbu orqanlar davam etdirdilər.

Təqiblər "Əkinçi"dən sonra da bitmədi. 1878-ci il noyabrın 20-də Həsən bəy Zərdabi Bakı Realnı məktəbinin müəllimi vəzifəsindən azad edildi. 1880-ci ildən doğulduğu Zərdab kəndində 16 illik sürgün həyatı yaşadı. Həmin illərdə də maarifçilik işini davam etdirdi, rusdilli qəzetlərə məqalələr yazdı.

1896-cı ildə Bakıya qayıtdı. Yenidən ən fəal ziyalılardan biri kimi diqqət mərkəzində oldu. 1897-ci ildə naşirinin milyonçu Hacı Zeynalabidin Tağıyev olması "Kaspi" qəzetinin fəaliyyətində yeni səhifələr açdı. Həsən bəyin böyük qızı Pərinin həyat yoldaşı Əlimərdan bəy Topçubaşov 1898-ci ildə bu qəzetin baş redaktoru oldu. Həsən bəy Zərdabi də qəzetçilik fəaliyyətini "Kaspi"də davam etdirdi.

O, Bakı şəhər Dumasına deputat (qlasnı) seçildi. Dumanın iclaslarında şəhərin uzaq məhəllələrində məktəb və xəstəxana açılması məsələlərini qaldırdı.

1901-ci ildə Bakıda Həsən bəy Zərdabinin məsləhəti, Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə Qızlar Məktəbi açıldı. Məktəbin ilk müdiri Hənifə xanım oldu.

Dünya malına meyil etmədi. Bakıda evi belə yox idi. Qəzet redaksiyasının kirayə etdiyi, Təzəpir məscidinin yaxınlığında, Staraya Poçtovaya (indiki Cəlil Məmmədquluzadə) küçəsində, Tağıyevin mülklərindən birində yerləşən mənzildə yaşayırdı. Böyük rus yazıçısı Maksim Qorki və məşhur müğənni Fyodr Şalyapin də qonaq olduğu, Həsən bəyin təşkil etdiyi ailə ziyafətində Şalyapin bir neçə rus romansı belə oxuduğu o altıotaqlı mənzili Qəribsoltan xanım Məlikova belə xatırlayırdı. "Bu otaqlar həmişə evimizdə nahar eləyən, gecəni burada keçirən kənar adamlarla dolu olurdu. Onlar ya ailəmizin saysız-hesabsız qonaqları, ya da öz işləri üçün Bakıya, atamın yanına gələn tanış kəndlilər idilər". Həsən bəy yaşadığı mənzili pansionata çevirmişdi. Hənifə xanım azərbaycanlı uşaqları məktəb və gimnaziyalara imtahan vermək üçün hazırlaşdırırdı. Mənzil-pansionatda yaşayan və təhsil alan oğlan uşaqlarının sayının on nəfərə çatdığı vaxtlar da olurdu.

Vətən övladlarının maariflənmələri, inkişaf etmiş millətlərin nümayəndələri ilə eyni sıralarda dayanmaları, ağ günlərə çıxmaları üçün Həsən bəy Zərdabi öz ömrünü şam kimi yandırdı. Böyük zəhmət, ağır sarsıntılar cansağlığını ondan aldı. Skleroz xəstəliyinə düçar oldu. 1906-cı ilin yazında beyninə qan sızdı, iflic vurdu. Qayğısını çəkdikləri, ustadı olduqları, yol göstərdikləri belə ona qarşı biganə, laqeyd oldular. Həsən bəyi sevgidən, qayğıdan bir an belə məhrum etməyən ailəsi isə "Kaspi" redaksiyasının verdiyi mənzildən çıxarılacaqlarının narahatlığı içində yaşadılar.

Həsən bəy Zərdabi 1907-ci il noyabrın 28-də vəfat etdi. Gördüyü böyük işlər yenidən bütün əzəməti ilə xatırlandı. Ona minnətdarlıqlarını ifadə etmək üçün gələnlərin ardı-arası kəsilmədi. Zərdabinin sonbeşiyi, Bakıdakı III Rus-müsəlman qızlar məktəbində müəllim işləyən Qəribsoltan Məlikovanın xatirələrinə həmin gün belə köçdü: "Otağa bir ucdan əklillər gətirirdilər. Onlar üzərində təsəlli sözləri yazılmış enli lentlərlə çevrələnmişdi. O qədər çox əklil vardı ki, yığıb-yığışdırmaq mümkün deyildi". Qəribsoltan xanım sonralar yada salırdı ki, dəfn mərasiminə gələn adamların çoxluğu az qala bütün şəhərin bura toplaşması təəssüratını yaradırdı.

### Öz sədaqətli dostu və alovlu müdafiəçisi ilə həmişəlik vidalaşanlar...

Noyabrın 30-da Həsən bəyin təntənəli dəfn mərasiminə gələn hər kəsin yükü ağır idi. Millətin dərdlərinə yanan ustadın yasına heç kim yalnız öz dərdini, qubarını, problemlərini götürüb gələ bilməzdi. Millətin birliyinin təntənəsi kimi tarixə çevrilən 1907-ci ilin o soyuq payız günü barədə Qəribsoltan xanım sonralar yazmışdı: "Şəhərin tanınmış adamları mərhuma özlərinin son borcunu vermək üçün tabutunun yanında cərgə ilə dayanmışdılar. Onların sifətində nəcib kədər ifadəsi vardı. Arxada isə üzlərini dərin qırışlar basmış, gözlərindən sonsuz ehtiyac və əzab oxunan bütöv insan dənizi dalğalanmaqda idi. İnsan iztirabı və yanğısı özünün bütün təbiiliyi və səmimiliyi ilə məhz bu arxa sıralarda dayananların üzlərində sezilməkdə idi. Bu zavallı adamlar öz sədaqətli dostu və alovlu müdafiəçisi ilə həmişəlik vidalaşırdı".

Azərbaycanın tanınmış, adlı-sanlı ziyalıları çıxış edir, Həsən bəy Zərdabinin millət qarşısındakı xidmətlərindən danışırdılar. "Aləmi-İslam bir qaranlıq içərisində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışmışdır. O məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi...", - dedi Əlibəy Hüseynzadə.

Doktor Qara bəy Qarabəyov çıxışında Həsən bəyin birinciliklərini xatırladtı: "Elə bir müsəlman ziyalısı tapılmaz ki, bizim ən qocaman müsəlman ziyalımız və həqiqi universitetimiz olan Həsən bəyə müraciət etməsin, ondan məsləhət almasın. O, qəflət yuxusuna dalmış müsəlmanların ilk oyadıcısı idi. O, ilk qəzeti yaratmışdı. O. ilk müsəlman teatr truppasını təşkil etmişdi. O, ilk rus-müsəlman məktəblərinin açılmasına səy göstərmişdi. O, ilk dəfə müsəlman gəncliyini məktəblərə, maarifə səsləmişdi". O, dəfn mərasiminə toplaşanların çoxunun qəlbindəki peşmanlıq duyğularını da dilə gətirdi: "Qocaman ədibimizi əlimizdən aldığına görə Allahdan şikayətçi deyilik. Bəlkə də vaxtı çatmışdı. Onun yoxsulluq içərisində vəfat etməsi də bizi kədərləndirmir. Bizi ən çox qüssə və ələmə qərq edən Həsən bəy xəstəliyi ucbatından ictimai işlərdən uzaqlaşdığı zaman onu unutmağımızdır. Heç birimiz ona baş çəkməyə getmədik. Şəhər nümayəndələri də saygısızlıq göstərdilər".

Dekabrın 1-də "Kaspi" qəzetində verilmiş "Həsən bəy Məlikovun dəfni" adlı məqalədə ustadın vəsiyyətinə əməl edilməməsinin səbəbi belə izah olundu: "Ənənələr və Həsən bəyin şəxsiyyətinə böyük ehtiram üstün gəldi və cəmiyyət onun sakit, səssiz-küysüz, təntənəsiz dəfn olunması haqqındakı vəsiyyətinə əməl edə bilmədi"...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Yerli qəzetlər necə yaşayır

## Dövlətin dəstəyinə ehtiyac duyuruq

**1930-1962-ci illərdə "Pambıq cəbhəsində", 1962-ci ildən 1992-ci ilədək "Muğan", həmin tarixdən sonra "Suqovuşan" və nəhayət, 2020-ci ildən "Muğanın səsi" adı ilə çıxan qəzetimizin 92 illik tarixi var.**

Rayon qəzeti vətənimizin bir parçasının canlı salnaməsidir. Çünki heç bir kütləvi informasiya vasitəsi əhatə etdiyi rayonun mənzərəsini yerli qəzet qədər canlandırmaq imkanına malik deyil. Bu baxımdan qəzetimiz də rayonumuzun tarixini az qala bir əsrə yaxındır ki, öz səhifələrində yaşatmaqdadır.

Söz ki tarixdən düşdü, bir az keçmişə qayıdaq. 1962-ci ildə Azərbaycan KP MK-nın qərarına əsasən, yaradılmış "Muğan" qəzetinin həyatında 1969-1982-ci illər mütərəqqi inkişaf dövrü olmuşdur. O dönəmdə Azərbaycan KP MK-nın birinci katibi olan Ümummilli Lider Heydər Əliyev hər il, bəzən ildə iki dəfə Sabirabada səfər edir, pambıq tarlalarında, taxıl zəmilərində, heyvandarlıq komplekslərində əməkçilərlə görüşüb onların işi və qayğıları ilə yaxından maraqlanırdı. Həmin illər pambıqçılıq rayonlarının zona müşavirələri də, adətən, Sabirabadda keçirilirdi. Respublika rəhbərinin rayonumuza səfərləri, əhali ilə görüşləri, kənd təsərrüfatında qazanılan uğurlar, rayonda aparılan işlər "Muğan" qəzetinin səhifələrində özünə yer alan qiymətli materiallar olurdu və o vaxtın qəzetləri bu günədək qorunub saxlanılır. Həmin dövr günaşırı çıxan qəzetimizin tirajı 20 minə yüksəlmişdi. Ümummilli Lider bütün tədbirlərində "Muğan"ın əməkdaşlarının iştirak etməsi ilə şəxsən maraqlanırdı. Bu gün Heydər Əliyev Mərkəzindəki şəkillərin böyük bir qismi məhz "Muğan" qəzetinin əvəzsiz xəzinəsindəndir.

Nəsillər, ictimai quruluşlar dəyişir, amma Sabirabad sakininin qəzetimizə olan marağı azalmır. Çünki "Muğanın səsi" qəzetlər üçün mürəkkəb olan indiki şəraitdə öz dəst-xətini, prinsipiallığını, simasını qoruyub saxlaya bilib. Rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatını, sakinlərin uğur və problemlərini işıqlandıran "Muğanın səsi" hər bir sabirabadlı üçün dəyərli mənəvi qidadır.

Amma qəzetimiz maddi sıxıntılar keçirir, baxmayaraq ki, heç vaxt problemlərdən gileylənib yolumuzdan geri çəkilməmişik, inamla irəliyə baxmışıq. Maliyyə və maddi-texniki cəhətdən imkanlarımız məhdud olsa da, qəzet əməkdaşları bu günədək sözün keşiyində dayanmağı bacarmışlar. Xüsusilə 44 günlük Vətən müharibəsi dövründə gecəmizi gündüzümüzə qatıb ən təzə xəbərləri həm qəzet səhifələrində, həm də qəzetin "Muganinsesi.az" internet saytında əhaliyə çatdırmışıq. Şəhidlərimizin hər birinə qucaq açaraq hünərlərini kövrək sətirlərlə ellə bir etmişik. Son dönəmdə yazarlarımızın bir-birinin ardınca çap etdirdikləri kitablarında bizim isti-isti qələmə aldığımız məqalələrdən bəhrələnmələri bizə çox xoşdur.

Bölgəmizin salnaməsini yaradan qəzetimizin bu günümüz və gələcəyimiz üçün əhəmiyyətindən uzun-uzadı danışmağa lüzum görmürük. Sadəcə vurğulamaq istəyirik ki, son illər qəzetin maddi durumu daha da ağırlaşıb. Daha doğrusu, 92 illik tarixi olan "Muğanın səsi" taleyin ixtiyarına buraxılıb, diqqət və qayğıkeşlikdən kənarda qalıb. Bu üzdən ömrünün çoxunu qəzetin yaşanmasına həsr edən jurnalistlərimiz vəsait çatışmazlığı ucbatından iş yerlərini itirirlər. Təkcə son bir ildə redaksiyanın 6 əməkdaşından 2-si ixtisara salınıb. Aylarla əməkhaqqısız, çox çətinliklə həftədə bir nömrə çıxardığımız qəzetimizin dövriliyini də aybaay itiririk. Vaxtı ilə 20 min nüsxə ilə çıxan qəzetimizin indiki tirajını isə deməyə adam utanır.

Bunlar azmış kimi, qəzetimizin tam təsərrüfat hesablı olmasına baxmayaraq, Dövlət Vergi Xidmətində qeyri-neft sektoru kimi deyil, dövlət sektoru subyekti kimi qeydə alınması maliyyə çətinliyimizi bir az da kəskinləşdirib. Məsələ ilə əlaqədar, yəni fəaliyyətimizin hansı sahəyə aid olduğunun müəyyənləşdirilməsi ilə bağlı 5 saylı Ərazi Vergilər İdarəsinə ünvanladığımız məktuba göndərilən cavabda isə Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 56 nömrəli qərarına əsasən, "Muğanın səsi" qəzeti redaksiyasının dövlət mülkiyyətinə aid olduğu bildirilib. Bu, vaxtilə qəzetin dövlət adından yaradılması, hazırda rayon icra hakimiyyətinin təsisçi olması və nizamnaməsinin icra başçısı tərəfindən təsdiq edilməsi və s. məsələlərlə əsaslandırılıb.

Bu yerdə deyiblər: "İçimiz özümüzü yandırır, çölümüz özgəni". Doğrudur, yerli qəzetlərin təsisçisi şəhər və rayon icra hakimiyyətləridir. Müvafiq qanuna görə isə təsisçilər təsis etdikləri KİV-ə kömək etməli, maddi-texniki bazasını möhkəmləndirməlidirlər. Elə ona görə də yerli icra hakimiyyətlərinə indiki halda öz qəzetlərinə maliyyə dəstəyi verə bilmələri üçün səlahiyyət verilməli, büdcədə buna görə vəsait nəzərdə tutulmalıdır. Yaxud, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına bölgə qəzetlərinin maliyyələşməsini nəzərdə tutan maddə əlavə oluna bilər. Bu da mümkün olmasa, həmin maddi yardımı MEDİA Agentliyi vasitəsilə etmək mümkündür. Ümumiyyətlə, çıxış yolu, mənbə çoxdur. Məsələn, bu gün təhsil, səhiyyə, mədəniyyət qurumlarının rəhbərləri rayon qəzetinə abunə olmağa biganə münasibət bəsləyirlər. Bəs müəllim, həkim, mədəniyyət işçisi rayon qəzetini mütaliə etmirsə, hansı maarifləndirmə işindən danışa bilərik? Bəlkə bu təşkilatlara rayon qəzetlərinə abunə olmaq üçün xüsusi limit ayrılsın?!

Ulu Öndər Heydər Əliyev deyirdi: "Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir". Çox dəqiq və yerində deyilmiş fikirlərdir. Elə rayonlarda çalışan biz jurnalistlər peşəmizin vurğunlarıyıq. Peşəsinin vurğunu olmaq isə ən ali hisslərdəndir.

Bu gün də mətbuat dövlətimizin diqqət mərkəzindədir. Prezident İlham Əliyev jurnalistlərlə mütəmadi keçirdiyi görüşlərin birində demişdir: "Jurnalistlərin peşəkarlığı, məsuliyyəti, dəqiq informasiyanın ötürülməsi - bütün bu məsələlər çox vacibdir. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Jurnalistlərin o qədər də böyük maddi imkanları yoxdur. Onlara dəstək mütləq verilməlidir. Dövlət bu məsələdə həmişə sizin yanınızdadır".

Biz buna inanırıq.

***İlham ƏSGƏROV,***
***Sabirabad rayonunda çıxan***
***"Muğanın səsi" qəzetinin baş redaktoru***

# Tarixə dönən günlər

**Yaşanan gözlənilən günlərdir. 29 illik həsrət bitdi. Ağalı kənd sakinlərinin gözləri yollardan yığışdı. Yollar onları doğma yurdlarına apardı. Bu, işğaldan azad olunan ərazilərə - Zəngilana ilk qayıdışdır. Bu, bir kəndin - Ağalı kəndinin yeni tarixinin başlanğıc günləridir...**



## Müharibədən, münaqişədən uzaq çağlar...

XX əsrin sonuncu onilliyinədək Qarabağın və Şərqi Zəngəzurun bütün yaşayış məntəqələrində olduğu kimi, Zəngilan rayonunun Ağalı kəndində də həyat öz sakit axarındaydı. Ailə, ev-eşik qayğıları, təsərrüfat işləri başlarını qatsa da, qohum-qonşunun, el-obanın sevincinə, dərd-sərinə biganə qalmırdılar. Üç kəndin birləşdiyi inzibati ərazidə 261 ailə yaşayırdı. Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) vardı.

1980-ci illərin sonlarında Ermənistan qondarma ad və əsassız iddialarla Azərbaycan ərazilərində münaqişələr törətməyə başladı. Sonralar şübhə qalmayacaqdı ki, bütün təxribatlara, münaqişələrə rəvac verilməsi, əslində, elə əvvəldən planlı şəkildə aparılıb. Azərbaycanlıların ayrı-ayrı yaşayış məntəqələrində erməni quldurları tərəfindən qətlə yetirilməsi barədə xəbərlər yayılırdı. Ağalılar da böyük nigaranlıq və narahatlıq içərisində idi. Təcavüzkar ermənilər isə getdikcə daha da azğınlaşırdılar. 1990-cı illərin əvvəllərində vəziyyət olduqca gərginləşdi. Qarabağ və Şərqi Zəngəzur əraziləri bir-bir erməni silahlıları tərəfindən işğal olundu. 1993-cü ilin oktyabrında Zəngilan rayonu da düşmən əlinə keçdi. Payızın soyuq günündə on minlərlə əhali Araz çayını keçib canlarını erməni silahlılarından qurtara bildilər. Rayonun bütün yaşayış məntəqələri kimi, Ağalı kəndini də ermənilər işğal etdilər.

2020-ci il sentyabrın 27-də, Vətən müharibəsi başlayan gündən zəngilanlılar da böyük həyəcanla Azərbaycan Silahlı Qüvvələrinin düşməni darmadağın edib qələbə qazanması xəbərini səbirsizliklə gözləyirdilər. Nəhayət, ümidləri doğruldu. Arzuları həyata keçdi. 44 gün davam edən müharibədə Ermənistan silahlı qüvvələri layiq olduqları məğlubiyyəti yaşadı. Azərbaycan Ordusunun igid döyüşçüləri onları ölkəmizin ərazilərindən qovdular. Vətən torpaqları azad edildi. Həmin günlərdən biri - 2020-ci ilin 28 oktyabrı da Zəngilanın tarixinə düşməndən xilas olduğu gün kimi yazıldı.













## Yenidən salınan köhnə yurd yerlərimiz

Ermənistan silahlı qüvvələrinin işğal müddətində vandallar kəndlərimizi, qəsəbələrimizi, rayonlarımızı, şəhərlərimizi xarabalığa çevirdilər. Qədim və müasir tikililəri uçurub dağıtdılar, talan etdilər, yandırdılar. Zəfərdən sonra Azərbaycan dövləti düşmənin qəddarlıqla, amansızlıqla dağıdıb yerləyeksan etdiyi yurd yerlərimizdə geniş və sürətli tikinti-quruculuq işlərinə başladı. Belə ünvanlardan biri də Ağalı kəndi oldu.

Ağalı kəndi artıq müasir şəhərsalma standartları tətbiq olunmaqla yenidən qurulub. 2022-ci il mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Kənd sakinlərinin rahatlığı üçün burada hər cür şərait yaradılıb. "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub.

Ağalının küçələrinin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, Günəş panellərinin quraşdırılması yüksək səviyyədə reallaşdırılıb. Kənddə "Gillmed" tikiş fabriki, Ailə sağlamlıq mərkəzi, uşaq bağçası və orta məktəb tikilib.

Ağalı kəndinin mərkəzi meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb.

Artıq 58 nəfərdən ibarət 10 ailə Ağalı kəndinə köçürülüb. Prezidentin Zəngilan rayonu üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, ümumilikdə isə 41 ailədən 201 nəfər növbəti 5 gün ərzində Ağalıya köçürüləcək. V.Hacıyev ilkin mərhələdə kənd sakinlərinin Ağalıda yaşaması üçün bütün infrastrukturun qurulduğunu qeyd edib: "Növbəti aylarda da köçürmələrin baş tutacağı gözlənilir. Hazırda ümumilikdə Ağalı kəndindən 1457 nəfər var. Onlarda 1357 nəfər bu kənddə yaşamaq niyyətini bildiriblər".

Sakinlərin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən təmin ediləcək.

## Ağalının xoş günləri başlayır

İyirmi doqquz il qabaq doğma yurdundan ağlaya-ağlaya çıxanlar, artıq gülər üzlə, sevinclə, böyük xoşbəxtlik hissi ilə geri dönürlər. Ozamankı cavanlar yaşa dolublar, aradan uzun illər keçib, ancaq onların saçlarının ağları, üzlərinin qırışları hamısı illərin gətirdikləri deyil. Çoxu yurd ağrılarının, ayrı düşdükləri el-oba, doğma ev-ocaq qüssəsinin, nisgilinin nişanəsidir.

Ovaxtkı körpələr Ağalını xatırlamırdılar. Ağalı onlar üçün valideynlərinin, qohum-qonşularının danışdıqlarından ibarət idi.

Ağalı kəndində dünyaya göz açıb, buranı uşaq ikən tərk edənlərin çoxu da doğma yurdunu heç düz-əməlli xatırlaya bilmirdi, bəzilərinin isə yadında qalanlar nağıla, xəyala, yuxuya bənzəyirdi.

Ağalı sakinləri sevinclə, qürurla öz kəndlərinə qayıdırlar. İyirmi doqquz il qabaq qucaqlarında körpə balaları ilə kəndi tərk edənlər indi nəvələri ilə birlikdə doğma yurda dönürlər. Deməli, Ağalının xoş günləri başlayır...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ağalını ağlaya-ağlaya tərk edənlər Ağalıya gülə-gülə qayıtdılar



O yurd ki, 28 ildir həsrətindən qovrulub yanır, sevincimizi, təsəllimizi yuxularımıza gəlməsilə tapırdıq, o yurd ki, şəkillərdə, xəyallarda yaşadırdıq, bu gün ona qovuşmuşuq. Yurdumuz yağı düşməndən azad olunub, həsrətimizə son qoyulub.

Yurd bizi bağışladı, qollarını geniş açıb bağrına basdı bizi. İllərdir küskün qalmış kəndlərimizin, şəhərlərimizin çöhrəsində güllər açıb indi, Zəngilana dönən, köçkün, qaçqın tənəsindən qurtulan soydaşlarımızın çöhrəsində açdığı kimi... Necə sevinirdilər, necə tələsirdilər yurda dönməyə. Geriyə dönən bu köçü görəndə illərlə yaşadığımız günlərin acısı getdi ürəyimizdən.

Ağalıdan ağlaya-ağlaya gələnlər Ağalıya gülə-gülə qayıtdılar. İyulun 19-da Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verildi. Keçmiş köçkünlərimizin ilk qrupu Abşeron rayonunun Masazır qəsəbəsindəki "Zəngilan şəhərciyindən" öz doğma yurd-yuvalarına döndülər.

Ağalı sakinlərini yolasalma tədbirindən sonra jurnalistlərin suallarını cavablandıran Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün köç prosesinin dövlət başçısının birbaşa nəzarəti altında olduğunu bildirdi... Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 4 mərhələdə köçürüləcək 41 ailənin, təxminən 200 nəfərin hər cür şəraitlə təmin olunacağını vurğuladı. Dedi ki, Ağalıda məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək.

Ağalı kəndinə əhalinin köçürülməsi Böyük qayıdışın ilk qədəmidir. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir. Yeni Ağalı kəndinə dörd mərhələdə 41 ailə köçürüləcək. Yola salınan ilk köç 10 ailədən ibarətdir.

Bu köçdən sonra daha heç kəs qarşımızı kəsə bilməz, daha heç bir düşmən üstümüzə hücum çəkməyə cürət etməz. Çünki bu torpağın əzəli sakinləri dədə-baba yurduna dönür. Çünki bu yurdun igid əsgərləri, ağlı, siyasəti ilə seçilən Ali Baş Komandanı və onların sayəsində etibarlı güvəni var.

İndi mən bir az da səbirsizləşmişəm, xəyalən də olsa, kəndimizə getmişəm. Bir ağ yola düşüb Qabartı çayı boyunca üzüyuxarı qalxmışam. Evimiz görünəndə dizlərimi yerə qoyub üzümü kəndimizin tozlu-torpaqlı yollarına sürtmüşəm. Nə vaxtdır burnuma kəndimizin şehli otunun, torpağının qoxusu gəlirdi. İndi isə bu xəyalımın tezliklə gerçəkləşəcəyinə inanıram. Niyə də inanmayım? Axı gözümüzün önündə Ağalıya qayıdış nümunəsi var.

***Zəkurə QULİYEVA,***
***"Azərbaycan"***

# *Ağalıya Böyük qayıdış ermənilərdə xof yaradıb:*
# "Etiraf edək ki, Qarabağ bizim deyil"

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdış proqramı üzrə Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanması ölkə tarixinin ən mühüm hadisələrindən biri kimi qiymətləndirilir.

Zəngilan rayonunun Ağalı kəndinin 58 sakininin - 10 ailənin artıq doğma yurd həsrətinə son verilib. Bu ayın sonuna qədər ümumilikdə 201 sakinin - 41 ailənin Ağalıya yerləşdirilməsi nəzərdə tutulur. Hazırda işğaldan azad edilmiş ərazilərdə icra olunan infrastruktur layihələri dayanmadan genişləndirilir.

Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti altında Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası istiqamətində həyata keçirilən genişmiqyaslı tikinti, quruculuq və bərpa işləri Azərbaycanın öz gücünə aparılır.

## "Qarabağda erməni qalmayacaq"

Bütün bunları indi ermənilər özləri də etiraf edirlər. Ermənistan mediasına, ekspertlərin, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, zəfərdən sonra Qarabağa qayıdışın başlanması qarşı tərəfdə ciddi narahatlıq yaradıb.

Ermənistan parlamentinin müxalif "Hayastan" fraksiyasının üzvü Qeqam Manukyan bildirib ki, Bakı yenidən istəyinə nail olur: "Azərbaycan azad etdiyi ərazilərə insanların köçürülməsinə başlayıb. Bu, Qarabağda ermənilərin olmayacağının ictimai təsdiqidir. Ermənistan dövlət və cəmiyyət olaraq yenidən müharibə etmək gücündə deyil. Bakı yenə istəyinə nail olur".

Ermənistan parlamentinin sədrinin sabiq müavini İşxan Saqatelyan isə qeyd edir: "Azərbaycan tərəfindən alternativ yol çəkilir, deyəsən, Nikol Paşinyanın Azərbaycan lideri ilə gizli razılaşması var ki, nəticədə bugünkü Laçın yolunu itirəcəyik. Stepanakertə (red.-Xankəndi) doğru Laçından yan keçən yol çəkilir və 2-3 ay sonra istismara veriləcək. Əgər o yol işləsə, bu o deməkdir ki, biz Laçını, o cümlədən Zabuxu, bir neçə kəndi tamamilə itirəcəyik. Ən əsası isə bütün kommunikasiyalarımız, yəni qaz, işıq rəqibin nəzarətində olacaq. Bu o deməkdir ki, biz tam asılı olacağıq. Ermənilərin Qarabağdan çıxarılacağını dedikdə bunu nəzərdə tuturduq. Bütün elektrik və qaz kommunikasiyaları Azərbaycan tərəfinin nəzarətinə keçəcək. Nəticədə Ermənistan tamamilə Azərbaycandan asılı duruma düşəcək, Qarabağda erməni qalmayacaq. Elə buna görədir ki, Azərbaycan köç prosesinə start verib. Zəngilana qayıdışın başlaması bunun təzahürüdür".

"Şərəf duyuram" parlament fraksiyasının deputatı Tiqran Abramyan da vəziyyətin ağır olduğunu bildirir: "Laçından keçən mövcud yola alternativ yolun tikintisi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulub. Bakıda isə məlum səbəblərdən bu bəndi tez bir zamanda icra etməyə tələsirlər. Bakının məqsədi ermənilərin Laçından yan keçməsidir ki, şəhər tam olaraq onların nəzarətinə keçsin. Çünki alternativ yolun yaranması nəticəsində Rusiya sülhməramlılarının patrul marşrutu da dəyişəcək. Müvafiq olaraq Ermənistan və Qarabağ arasında yerüstü əlaqənin təmin edilməsi baxımından biz bugünkündən xeyli çətin vəziyyətə düşəcəyik".

## "Xankəndini tərk etməyəcəklərini deyənlər indi oradan getməyi düşünürlər"

"4rd.am" portalı hazırladığı reportajda diqqəti Laçından keçən və Azərbaycan tərəfindən inşası həyata keçirilən yola yönəldir: "Tarixən Ermənistandan Azərbaycanın rayonlarına gedən avtomobil yolu Laçın şəhərinin mərkəzindən keçib. Hazırda da Qarabağda yaşayan ermənilərin Ermənistanla əlaqəsinin olması üçün həmin yol istifadədir. Belə ki, ermənilər Laçın şəhərinə daxil olaraq hərəkət edirlər. Lakin tezliklə buna son qoyulacaq. 10 noyabr Bəyanatının 6-cı bəndinə uyğun olaraq, Laçın şəhərinin içindən keçən yola alternativ yol üç il ərzində inşa edilməli, bundan sonra şəhərin mərkəzi Azərbaycanın nəzarətinə keçməlidir. Yeni yolun istifadəsindən sonra ermənilər bu əraziləri tərk etməli olacaqlar. Bununla yanaşı, Kiçik Qaladərəsi və Böyük Qaladərəsində yaşayan ermənilər hazırda istifadə etdikləri əkin və otlaq sahələrinin böyük hissəsini də itirmiş olacaqlar".

Ermənistanın "Qrapark" qəzeti məsələ ilə bağlı yazır: "Qarabağdan bizə bildiriblər ki, azərbaycanlıların qayıdışı fonunda Xankəndi və digər ərazilərdən mühacirət etmək niyyətində olan ermənilərin sayı kəskin artıb. Hətta Xankəndini heç vaxt tərk etməyəcəklərini deyənlər də indi oradan getməyi düşünürlər. Deyirlər ki, bu ərazi birdəfəlik Azərbaycanın nəzarətinə keçir, belə olan halda Qarabağda qalan ermənilərin aqibətinin necə olacağı məlum deyil. Bu vəziyyətdə onlar köçməyə üstünlük verirlər".

## "İlham Əliyev yavaş-yavaş Zəngəzura, Mehriyə, Qafana doğru irəliləyir"

Manvel Qasparyan adlı instaqram istifadəçisi sakinlərin Ağalı kəndinə qayıdışı ilə bağlı yer alan xəbər paylaşımına belə şərh verib: "Ermənistan ölüb, ağlayanı yoxdur. Azərbaycanlıların qayıdışla bağlı açıqlamalarını izlədim, dəhşətə gəldim. Xəbəriniz varmı ki, İlham Əliyev yavaş-yavaş Zəngəzura, Mehriyə, Qafana doğru irəliləyir. Etiraf edək ki, Qarabağ biz ermənilərin deyil. Boş yerə gənclərimiz həlak oldular".

"Vkontakte" sosial şəbəkəsində "İlham Əliyev iki ilə Qarabağı abadlaşdırdı, artıq qayıdış başladı" başlığı ilə bağlı paylaşılan şəkilə münasibət bildirən Qaqik Melkumyanın səhifəsi isə əyləncə məkanlarında çəkilmiş fotolarla dolu idi. Rumıniyada ticarətlə məşğul olan Qaqik gülüş işarəsi ilə paylaşılan şəklə belə rəy bildirib: "Yazıq Ermənistandakı həmvətənlərimin halına. İllər öncə Qarabağ bizim nəyimizə lazımdır dedikdə, Sarkisyan rejimi məni və ailəmi ölümlə hədələmişdi. Bir dəfə dostum Nikosyanın dəvəti ilə Qarabağa getmişdim. Yollar bərbad, yaşayış çox acınacaqlı idi. Yazıq millətimi sanki sürgün etmişdilər. İndi isə videodan görürəm ki, Əliyev oraları cənnətə çevirib".

## "Qarabağ heç vaxt biz ermənilərin olmayıb"

Robert Vazgenyan adlı biri isə tviterdə yazıb: "Niyə sülh müqaviləsi imzalamırıq? Artıq azərbaycanlılar Qarabağa qayıtmağa başlayıblar. Vətənşüvənlik etmək lazım deyil, Qarabağ heç vaxt biz ermənilərin olmayıb. İndi dostluq zamanıdır. Müharibədən sonrakı qorxu hələ də canımızdadır. Paşinyan, sülh müqaviləsini niyə uzadırsan, kimlərdən qorxursan? Cəsarətli ol, İlham Əliyevdən nümunə götür".

Edvard Karapetyan instaqramda Zəngilandan şəkil paylaşaraq qeyd edib: "Xankəndidə yaşayıram. Deyəsən, burada da son günlərim keçir. Acı olsa da, reallığı İkinci Qarabağ müharibəsində gördük. O vaxt əsgər kimi məni Zəngilana göndərmişdilər. Xarabalıqlar içərisində nələr çəkdiyimizi bir Tanrı bilir. İndi isə inanmaq çətindir, İlham Əliyev tez bir zamanda oraları necə abadlaşdırıb, şokdayam".

## "Xilasımız sülh müqaviləsidir"

Daha bir Ermənistan vətəndaşı Karen İvanyan isə tviterdə belə bir status paylaşıb: "Nikol Paşinyana məsləhət görərdim ki, İlham Əliyevin verdiyi bəyanatlara diqqətlə qulaq assın. Müharibədəki səhvlərini təkrar etməsin. Xilasımız sülh müqaviləsidir".

Henrix Poqosyan isə "Odnoklassniki"də zəngilanlıların Ağalı kəndinə qayıdışı ilə bağlı paylaşımın altına belə bir şərh yazıb: "Açıq reallıq budur. Əliyev Qarabağa erkən qayıdışla Paşinyana əsl dərs verdi. Bizim Nikol bəs nə edəcək? Seyrçi mövqeyində qalacaq".

Bütün bunlar zəngilanlıların Ağalı kəndinə qayıdışının Qarabağda yaşayan ermənilər üçün nə dərəcədə sarsıdıcı zərbə olduğunu bir daha aydın nümayiş etdirir. Azərbaycan ərazilərində rus sülhməramlı qüvvələrinin nəzarəti altında olan zonalarda yaşayan ermənilər də Qarabağı tərk etməyə başlayır. Bu prosesin qarşısını artıq heç bir qüvvə ala bilmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



Tərtərdən iki xəbər

## Ordenli Vətən müharibəsi iştirakçısının toy mərasimi el şənliyinə çevrildi

Rayonun Poladlı kənd sakini, Vətən müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli Salahov Elnur Elburus oğlunun toy mərasimi olmuşdur.

Ailə quran gəncləri təbrik edən RİH-in başçısı Müstəqim Məmmədov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Elnur kimi igid oğulların döyüşlərdə göstərdikləri şücaət nəticəsində 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunduğunu bildirmişdir. Qeyd etmişdir ki, Elnur "Azərbaycan Bayrağı" ordenindən başqa, "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə də təltif edilib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid və qazi ailələrinə göstərdiyi diqqət və qayğıkeşlikdən danışan M.Məmmədov hər kəsi bu örnəkdən nümunə götürməyə çağırmış, Ulu Tanrıdan ərazi bütövlüyümüz uğrunda həlak olmuş şəhidlərə rəhmət, qazilərə cansağlığı arzulamış, şəhid analarının qarşısında baş əydiyini, onların "baş tacımız" olduğunu bildirmişdir.

Milli Məclisin deputatı Sahib Alıyev də gəncləri təbrik edərək onlara xoşbəxtlik arzulamış, Vətən müharibəsində tərtərlilərin düşmənə bir sipər olduğunu, yaşayış məntəqələrinin atəşə tutulmasına baxmayaraq, öz ev-eşiklərini tərk etmədiklərini söyləmişdir.

Rayonun idarə, müəssisə və təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərlərinin, eləcə də qazi və müharibə iştirakçılarının iştirak etdikləri toy el şənliyinə çevrilmişdir.

## Taxıl biçini yekunlaşıb

### Orta məhsuldarlıq 41 sentnerdir

Cari ilin məhsulu üçün rayon üzrə 8102,9 hektarda taxıl əkilmişdi. Bunun 3976,7 hektarı buğda, 4216,2 hektarı dən üçün arpa idi.

Bütün qüvvələrini səfərbər edən taxılçılar zəmilərdən 33 min 233,1 ton məhsul biçmişlər. Hər hektarın orta məhsuldarlığı 41, o cümlədən buğda üzrə 43,6, arpa üzrə 38,5 sentner olmuşdur. Ötən illə müqayisədə buğdanın məhsuldarlığı 0,7, arpanın məhsuldarlığı 0,6 sentner artmışdır.

Bir çox fermerlər - Emin Qurbanov, Şahmar Müseyibov, Fazil Vəliyev, Rüstəm Quliyev və başqaları isə zəmilərin hər hektarından 45 sentnerdən yüksək taxıl biçmişlər.

Hazırda biçilmiş taxıl sahələrində şum aparılır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Xəzər sahilində Sumqayıt tablosu

### Yamyaşıl dənizkənarı bulvar, mavi şəhər çimərliyi və qədim Corat kəndi

**Ölkəmizin bir çox bölgələri kimi, Sumqayıtın da turizm potensialı genişdir. Paytaxtdan yarım saatlıq məsafədə yerləşən bu şəhəri Azərbaycana gələn turistlərin böyük hissəsi ziyarət edir. Yayda isə Sumqayıtın dəniz sahillərində istirahət etmək istəyənlərin sayı daha da artır.**



Bu gün Sumqayıtda şəhər, kənd və çimərlik turizmi formalaşır. Şəhərdə həyata keçirilən layihələr buranı inanılmaz dərəcədə dəyişdirib. İnşa edilən hotel və mehmanxanalar şəhər turizminin inkişafı üçün geniş imkanlar yaradıb. Şəhərə təşrif buyuran turistlər iri ticarət mərkəzlərini, bir-birindən fərqli istirahət məkanlarını, park və xiyabanları gəzərək xoş təəssürat əldə edirlər. Sumqayıtda turistlər üçün xüsusi turlar təşkil edilir. "Göyərçin" abidəsi, bulvar və bələdiyyə parkının yanından ayrılan avtobuslar təkcə şəhəri dolaşmır, həm də qonaqlara Sumqayıtın tarixi haqqında məlumat verilir.

Sumqayıtın turizm potensialına hesablanmış layihələrdən biri də şəhər dənizkənarı bulvarının yaradılmasıdır. Xəzər sahilində Bakıdan sonra ikinci belə bir bulvarın salınması həm də ölkəmizdə görülən sosial layihələrin ardıcıl həyata keçirildiyini nümayiş etdirir. Bulvar təkcə Sumqayıtın simasını dəyişməyib, eyni zamanda ona turizm statusu verib. Təqribi hesablamalara görə, son beş ildə bulvarı 100 mindən artıq qonaq ziyarət edib.

Sumqayıt bulvarı dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə salınıb. Burada 4,2 kilometr uzunluğunda, 1,5 metr hündürlüyündə istinad divarı tikilib. 55 hektar ərazidə yaşıllıq zolağı salınan bulvarda 200 mindən çox ağac və dekorativ kol, 2 milyondan artıq gül və çiçək əkilib. Amma bu da hələ hamısı deyil. Hazırda Sumqayıt bulvarının genişləndirilməsini nəzərdə tutan yeni layihə üzərində işlər gedir. Yaxın gələcəkdə bulvarda yeni salınan obyektlərin, istirahət ocaqlarının şahidi olacağıq.

Sumqayıtda kənd turizmi isə çoxdan formalaşıb. Hələ sovetlər dönəmində Corat kəndinə müttəfiq respublikalardan həm ziyarətə, həm də turist kimi gəzməyə gələrdilər. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da Corata turistlərin marağı azalmayıb. Sumqayıtda qonaqların ən çox gəldiyi kənddə may ayının sonlarından başlayaraq evlər kirayələnməyə başlayır. Çünki dəniz sahilində yerləşən Corat istirahət üçün ən gözəl yerdir. Həm də kirayə evlər digər yerlərə nisbətən sərfəlidir.

Böyüklü-kiçikli hamının gözlədiyi yayda dənizə getməmək, Xəzərin duzlu suyuna baş vurmamaq günahdır. Elə isə Sumqayıtın çimərlikləri sizin ixtiyarınızdadır. Şəhərdə çimərlik turizmini şərtləndirən əsas cəhət onun təbii mövqeyidir. Bundan əlavə, çimərlik ərazilərində istirahət edənlərə lazımi səviyyədə ticarət, iaşə və digər xidmətlərin göstərilməsi qaydalarına əməl edilməsinə ciddi nəzarət var. Üstəlik, Sumqayıtın çimərliklərində istirahət etmək üçün ödəniş tələb olunmur.

Şəhər çimərlikləri təmizlikləri ilə də fərqlənir. "Sumqayıt şəhər Təmizlik Depatamenti" MMC və Gigiyena və Epidemologiya Mərkəzinin əməkdaşları bu işə ciddi yanaşırlar. Yay mövsümündə fəaliyyətini gücləndirən mərkəzlərdə çalışanların da sayı artır. Bu da mövsümi iş yerlərinin yaranmasına, insanların ailə büdcələrinin artmasına səbəb olur.

Bəli, yayın bəzəyi dəniz, dənizin bəzəyi onun qoynunda dincələn insanlardır. Bu baxımdan Xəzərin gözəlliyi yayda özünü daha çox büruzə verir. Onu görmək üçün isə dənizə getmək və onun ləzzətini çıxarmaq lazımdır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan balının qeyri-neft məhsulu kimi ixrac potensialı genişdir

### İşğaldan azad olunmuş ərazilərdə 300 min arı ailəsi saxlamaq mümkündür

Prezident İlham Əliyevin "Azərbaycanda arıçılığın inkişafının stimullaşdırılması haqqında" 2018-ci il 5 mart tarixli sərəncamı bu sahədə ciddi dönüşün yaranmasına səbəb olmuşdur. Sərəncamın imzalanmasından ötən 4 il ərzində ölkə üzrə arı ailələrinin sayı 4,4, bal istehsalı isə 4,8 dəfə artmışdır. Xatırladaq ki, sözügedən sərəncama əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə hər arı ailəsinə (pətəyə) görə subsidiya ödənilir.



Arıçılığın inkişafına verilən dövlət dəstəyi özünü statistik rəqəmlərdə də aydın göstərir. Məsələn, 5 il əvvəl ölkədə 250 min arı ailəsi olduğu halda, hazırda bu rəqəm 500 mindən çoxdur. Ötən il Azərbaycanda 6802,7 ton bal istehsal olunub, halbuki daxili tələbatımız 5 min tondur. Deməli, 2 min tona yaxın ixrac potensialımız olub. Bununla yanaşı, keçən il arıçılarımız 172,6 ton mum, 15,6 ton venləmum, 17,8 ton güləm, 215,4 kiloqram arı südü əldə ediblər.

Məlumdur ki, arıçılığın inkişafında məhsuldar arı növlərinin yetişdirilməsi xüsusi önəm daşıyır. Bu üzdən ölkəmizdə yerli genefondların qorunması və damazlıq növünün müəyyən edilməsi istiqamətlərində lazımi tədbirlər görülür. Məsələn, yerli genefond olan "Boz dağ Qafqaz" arı cinsi yetişdirilən 3 arıçılıq təsərrüfatında zootexniki qiymətləndirmə aparılıb. Təsərrüfatlar damazlıq təsərrüfatları kimi qeydiyyata götürülərək dövlət reyestrinə daxil edilib. Ümumiyyətlə, bu prosesə daim nəzarət olunur. Belə ki, damazlıq təsərrüfatlarının yaradılması, seleksiya-damazlıq işlərinin təşkil edilməsi üçün mütəmadi monitorinqlər keçirilərək qiymətləndirmələr aparılır, cinslər üzrə əldə olunan göstəricilər təhlil edilir. Söz düşmüşkən onu da qeyd edək ki, damazlıq arıçılığının inkişafı məqsədilə ölkədə ilk dəfə Zaqatalada "təcrid" zonası yaradılıb.

Bu gün Azərbaycanda dövlət dəstəyi sayəsində arıçılıq gəlirli sahəyə çevrilib. Buna görə də fermerlərin arıçılığa marağı artıb. İldən-ilə arıçılıqla məşğul olan rayonların sayında da artım var. Mütəxəssislərin rəyinə görə, işğaldan azad edilən rayonların 300 min arı ailəsini saxlamaq potensialı var. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzur bölgələrində arıçılığın inkişafı üçün zəngin yem bazası mövcuddur. Bu isə o deməkdir ki, qarşıdakı illərdə ölkəmizdə arı ailələrinin sayının və deməli, məhsul istehsalının artacağı qaçılmazdır.

Bu il Qubadlı rayonuna 38 arıçılıq təsərrüfatı köçürülüb. Arı ailələri Qubadlı şəhər mərkəzinin ətrafında, Qazyan, Muradxanlı, Xanlıq, Mollu, Hal, Mahmudlu, Bəxtiyarlı, Tatar, Qaraçalı və Zilanlı kəndlərində yerləşdirilib. "Dağ Arıçıları" İctimai Birliyinin rəhbəri Yusif Quliyev bildirir ki, bu köç Qubadlı arıçılarının həmişəlik yaddaşında qalacaq.

Azərbaycan balı dünyada ən keyfiyyətli bal hesab olunur. FAO-nun Azərbaycan ofisinin rəhbəri Mələk Çakmak deyir: "Beynəlxalq ekspertlərin fikrincə, ən yaxşı arı cinsi və ən yaxşı bal Azərbaycana məxsusdur. Biz də bu məhsulun daha çox istehsal edilib dünya bazarına çıxarılmasına dəstək verməyə çalışırıq". Bu yerdə bildirək ki, mütəxəssislərin sözlərinə görə, ölkəmizdə bal verən 600-ə qədər bitki növü mövcuddur. Onların da təxminən 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük imkanlar yaradır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Ənənə davam edir

Goranboy fermerlərinin taxılçılıqda müsbət ənənələri var. Məsələn, keçən il rayon üzrə 21775 hektarda taxıl (8410 hektarı buğda, 13365 hektarı arpa) əkilmiş və zəmilərdən yüksək məhsul götürülmüşdür.

Amma rayon taxılçıları cari mövsüm üçün əkin sahələrinin həcmini xeyli genişləndirmişlər. Onlar bu ilin məhsulu üçün 23995 hektarda taxıl əkmişlər ki, onun da 7957 hektarı buğda, 14605 hektarı arpa, 1343 hektarı isə xəsildir. Aparılan düzgün aqrotexniki tədbirlər nəticəsində zəmilərdə bol taxıl yetişdirilmişdir.

Hazırda rayonda biçinin son mərhələsidir. Yüksək məhsuldarlıq fermerləri sevindirir. Onlar əvvəlki ildəkindən fərqli olaraq hər hektardan 34-35 sentner taxıl götürürlər. Həmişə olduğu kimi, bu dəfə də Qızılhacılı, Səfikürd, Boluslu, Əlirzalı, Qaramusalı, Qırıxlı, Fəxralı və Gürzallar kəndlərində məhsuldarlıq daha yüksəkdir.

Yığılmış taxılın saxlanması üçün rayonda hər cür şərait yaradılmışdır. Xırmanlarda qurudulan taxıldan gələn ilin məhsulu üçün toxum tədarükü də edilir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Daha bir kəndlərarası yol yenidən quruldu

Respublika əhəmiyyətli Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 46-cı km-dən ayrılan və uzunluğu 8 km olan Qarağacı-Mirzəcəfərli-Mollagüllər avtomobil yolu IV texniki dərəcəyə uyğun yenidən inşa olunub.

Əvvəllər qara və çınqıl örtüklü olan yolda, xüsusən, payız-qış aylarında istər avtonəqliyyat vasitələrinin, istərsə də vətəndaşların hərəkətində bir sıra problemlər yaşanırdı. İndi həmin problemlər arxada qalıb.

Tikinti işləri çərçivəsində müxtəlif həcmdə yol yatağının 10 metrə qədər genişləndirilməsi işləri aparılıb, qazma-dolma və kipləşdirmə işləri görülüb, yeni yol yatağı inşa edilib. 2 hərəkət zolaqlı olacaq yola 6 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 2 metr enində çiyinlər daxildir.

Layihə çərçivəsində əkin sahələrinin suvarılması üçün zəruri yerlərdə müxtəlif diametrlərdə olan suötürücü boruların, beton küvetlərin tikintisi, həmçinin mövcud suötürücü boruların bərpası işləri görülüb.

Daha sonra "İnşaat Norma və Qaydaları"na əsasən, optimal-qırmadaş və qum-çınqıl qarışımından ibarət yol əsasının tikintisi və yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılıb. Yolboyu 12 santimetr qalınlığında və 2 qat olmaqla yeni asfalt-beton örtüyü döşənib.

Sonda zəruri olan yerlərdə yol nişanı, dayanacaq və məlumatverici lövhələr quraşdırılıb, yolcizgi və yolgöstərici xətlər çəkilib.

## Şamaxıda yarım ildə 423 yeni iş yeri açılıb

Əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən siyasət, sahibkarlığın inkişafına verilən dəstək hər yerdə olduğu kimi, Şamaxı rayonunda da öz uğurlu nəticəsini göstərir.

2022-ci ilin birinci yarısında təkcə Şamaxıda 423 yeni iş yeri açılıb. Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, yarım ildə yeni açılan iş yerlərinin hamısı daimidir. Təzə iş yerlərinin 62-ni mövcud müəssisə və təşkilatlar, 361-ni isə fiziki şəxslər təqdim ediblər.



## Gədəbəy kartofunun daha məhsuldar sortları yetişdirilib

Son illər kənd təsərrüfatının inkişafına dövlət səviyyəsində göstərilən diqqət və verilən dəstək sayəsində gədəbəylilər də aqrar sektorda bir sıra uğurlara nail olurlar. Xüsusilə kartofçuluq sahəsində qazanılan nailiyyətlər hər cəhətdən daha səmərəlidir.

Keçən il rayonda 10 min 44 hektarda kartof əkən təsərrüfat sahibləri 126 min 556 ton məhsul götürüblər. Lakin Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevin sözlərinə görə, bu il məhsuldarlıq daha çox olacaq: "Bunun əsas səbəbi kartof əkildikdən sonra uzun müddət yağışların yağmasıdır. Yağışlar torpağa can verdi. İndi rayonda kartof əkən bütün təsərrüfat sahiblərinin üzü gülür. Bilirlər ki, əvvəlki illərdən fərqli olaraq bu il sahələrdən bol məhsul götürəcəklər. Elə bir kəndimiz yoxdur ki, orada kartof əkilməsin. Slavyanka, Zəhmət, Söyüdlü, Saratovka, Qızıltorpaq və başqa kəndlərdə bol məhsul yetişmişdir. Hazırda kartofun ziyanvericilərdən qorunması üçün mübarizə tədbirləri görülür".

Gədəbəylilər, əsasən, "Telman", "Əmiri", "Ağçiçək" sortlarına üstünlük verirlər. Təsərrüfat sahibləri deyirlər ki, Gədəbəy torpaqlarında bu kartof sortları məhsuldar olur. Keçən il hər hektardan 130 sentner məhsul götürülsə də, cari il fermerlər bu göstəricini 150 sentnerə çatdırmaq istəyirlər.

Azərbaycanda əsas kartofçuluq rayonu sayılan Gədəbəydə seleksiya işləri də aparılır. İki ildir ki, Azərbaycan Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunun alimləri rayon ərazisində daha məhsuldar kartof sortlarının yetişdirilməsi ilə məşğuldurlar. Aparılan seleksiya işlərinin nəticələri müsbətdir. Slavyanka kəndi ərazisində aparılan seleksiya işləri nəticəsində yeni məhsuldar "Çənlibel", "Vaqif", "Uğur" və "Turan" sortları yetişdirilib. Xəstəliklərə qarşı davamlı olan həmin sortların məhsuldarlığı 250 sentnerə çatır. Hazırda rayonun bir neçə təsərrüfat sahibi həmin kartof sortlarından əkmişdir.

Saratovka kəndinin sakini Əli İsmayılov kartofçuluq sahəsində zəngin təcrübə toplayıb. Hər il 20 hektardan çox sahədə məhsul yetişdirir. Bu sahələrdən 300 tona yaxın məhsul götürən fermer deyir ki, istehsal etdiyi kartofun satışında elə bir problem yaşamır. Məhsulun yarıdan çoxunu yüksəkkeyfiyyətli olduğu üçün elə sahədəcə satır.

Onu da deyək ki, Əli İsmayılov kartofun əkinindən tutmuş yığımınadək bütün işləri texnika ilə həyata keçirir. Fermerin təsərrüfatında kartof toxumunun çeşidlənməsi üçün lazım olan aqreqatlar və çeşidlənmiş toxumluq kartofu saxlamaq üçün anbar var.



Gədəbəydə kartofçuluqda zəngin təcrübə qazanan fermerlərdən söz düşəndə Saratovka kəndinin sakini Ramiz Əliyevin, Daşbulaq kəndinin sakini Hafiz Fətəliyevin, Düz Rəsullu kəndinin sakini İmran Həsənovun da adlarını çəkirlər. Onlar hər il hektardan 250 sentnerədək məhsul götürürlər. Bu işinə görə Hafiz Fətəliyev dövlət başçısının sərəncamı iə II dərəcəli "Əmək" ordeninə layiq görülüb. Hazırda Gədəbəydə kənd təsərrüfatı işlərinin qızğın çağıdır. Xüsusilə əkin sahələrində ən çox gözə dəyən kartof becərənlərdir. Onlar yetişdirdikləri məhsulu qoruyub saxlamaq və daha çox məhsul istehsalına nail olmaq üçün var qüvvələrini əsirgəmirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Bol məhsul istəyiriksə...

# Ölkəmizdə taxılçılığın inkişafı üçün hər cür imkan və şərait var

## Sadəcə olaraq, həmin imkanlardan səmərəli istifadə olunmalı, işə can yandırılmalıdır

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda həyata keçirilən aqrar islahatlara uyğun yeni hüquqi bazanın yaradılmasına zərurət yaranmışdır. Bu səbəbdən aqrar sahədə Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş ilk qanunun "Toxumçuluq haqqında" olması, daha sonra "Seleksiya nailiyyətləri haqqında", "Taxıl haqqında" və digər qanunların qəbulu, eləcə də "Kənd təsərrüfatı bitkilərinin toxumlarının sort və səpin keyfiyyəti"nə dair Milli Dövlət Standartının, "Aprobasiya" haqqında təlimat və bir çox digər sənədlərin hazırlanması təsadüfi deyil.



Bütün ölkələr kimi, Azərbaycanın da sosial-iqtisadi inkişafında, ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatının xüsusi rolu var. Ona görə də dünyada baş verən ərzaq çatışmazlığı fonunda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində təxirəsalınmaz işlərin görülməsi çox vacibdir. Prezident İlham Əliyevin çox ciddi şəkildə qarşıya qoyduğu buğda idxalını azaltmaq, yerli məhsul hesabına əhalinin ərzağa olan tələbatını ödəmək bu gün aqrar sahənin qarşısında duran əsas vəzifədir. Dünyanın hər yerində taxılçılığın, xüsusilə buğda bitkisinin inkişafına xüsusi diqqət yetirilir. İnkişaf etmiş ölkələrdə buğda toxumu səpilmiş sahənin hər hektarından 80-100 sentner məhsul götürülsə də, ölkəmizdə bu rəqəm xeyli aşağıdır. Bunun bir çox səbəbləri var və onların əksəriyyətinin həlli mümkündür.

Bildiyimiz kimi, toxum kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının bünövrəsidir. Toxumun keyfiyyəti nə qədər yüksəkdirsə, ondan inkişaf edən bitkilər də bir o qədər güclü və məhsuldardır. Məhsuldarlığı yüksəltmək işində toxumun əhəmiyyətini nəzərə alaraq toxumların təmiz, cücərmə qabiliyyətinin yüksək, dolğun, sağlam olması üçün yüksək təsərrüfat tələbkarlığı göstərilməlidir. Əfsuslar olsun ki, bizdə fermerlərin böyük əksəriyyəti bu sahənin mütəxəssisi olmadığı üçün həmin məsələlər diqqətdən kənar qalır. Halbuki yüksəkkeyfiyyətli toxumlarla səpin aparılarkən aqrotexniki tədbirlərin düzgün həyata keçirildiyi şəraitdə məhsuldarlığı ən azı 20-30 faiz artırmaq mümkündür. Deməli, əsas iş keyfiyyət göstəriciləri yüksək olan toxumdan başlayır.

Hazırda fermerlərin böyük əksəriyyəti mənbəyi və mənşəyi bilinməyən material ilə səpin aparır. Onun toxum və ya əmtəəlik məhsul olması barədə hər hansı sənədə və məlumata malik olmurlar. Rayonlaşmamış, sertifikatı olmayan, bazardan alınmış toxum ilə aparılan səpinlərdən isə yüksək məhsul əldə etmək mümkün deyil. Ucuz başa gəldiyi üçün səpin aparan şəxslərin böyük bir qisminin belə etdiyini nəzərə alaraq onlar arasında maarifləndirmə işlərinin aparılması, alim və mütəxəssislər tərəfindən treninqlərin keçirilməsi çox vacibdir. Bu məsələni həll etmək üçün Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) imkanlarından istifadə edilməsi məqsədəuyğun olardı.

Amma bunun əvəzinə əksər hallarda heç bir analiz aparmadan toxum materialının səpini həyata keçirilir ki, bu da nəticədə külli miqdarda məhsul itkisinə gətirib çıxarır. Halbuki toxum partiyasının sənədlərində göstərilmiş sortluq və səpin keyfiyyət göstəricilərinə baxmayaraq, onların səpinqabağı analiz edilməsi bu problemi həll etmiş olardı. Çünki bəzi hallarda toxumun sənədlərində göstərilənlər həqiqəti əks etdirmir. Unudulmamalıdır ki, aprobasiya edilməmiş sahənin məhsulundan toxum kimi istifadə etmək olmaz. Aprobasiya toxum üçün əkilmiş sahənin məhsulunun toxum kimi istifadəsinin bəyənilməsidir. Bunun üçün xüsusi təlimat işlənmiş və qəbul edilmişdir. Buna əməl edilməsi hər bir toxum yetişdirənin əsas vəzifəsidir. Bu iş isə bitkinin tam yetişmə mərhələsində, yığımqabağı həyata keçirilir ki, bu da yayın ən isti aylarına düşdüyündən bir çox hallarda tam təlimata uyğun gəlmir. Buna cavabdeh olan dövlət qurumları çox səy göstərsələr də, yerlərdə onu həyata keçirən şəxslərin məsuliyyətsizliyi, bəzən də səhlənkarlığı düzgün nəticələrin əldə edilməsinə imkan vermir. Toxum barədə düzgün nəticələrin əldə edilməsi bu prosesdən asılıdır. Sahələrimizin əksər hissəsinin bu gün də qarışıqlardan - yumşaq və bərk buğda növləri, növ müxtəliflikləri, onların sortları, arpa, çovdar və s. ilə qarışıq olması da bunun nəticəsidir.

Onda ortaya sual çıxır: niyə sahələrimiz qarışıqdır? Təbii ki, burada ikinci bir səbəb də var. Bu, fermerlərimizin kiçiksahəli pay torpaqlarına sahib olduqları üçün növbəli əkin sistemini tətbiq edə bilməmələridir. Bunun nəticəsidir ki, onlar uzun illər eyni sahədə eyni bitkini əkir və bu, sahələri həmin bitkinin xəstəlikləri və zərərvericiləri ilə sirayətləndirir. Odur ki, fermerlərimizə növbəli əkin sistemini tətbiq etmələri tövsiyə olunur. Çünki həm aprobasiyanın təlimata uyğun aparılması, həm də növbəli əkinlərin tətbiqi bu məsələni qismən də olsa həll edir.

Ticarət dövriyyəsinə daxil edilərkən rayonlaşmamış sortların, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan, qablaşdırılmamış və etiketləşdirilməmiş, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatının müddəti qurtarmış və sort qarışığı olan toxumların istifadəsinə icazə verilməməlidir. Bəzən əkinçilərimiz öz əkin sahələrindən götürdükləri məhsul ilə, bəzən də qonşudan, tanışdan və ya bazardan aldığı məhsul ilə səpin aparırlar. Heç bir sənədi olmayan, analiz edilməmiş belə toxumlarla səpin aparmaq olmaz. Bu işə daha ciddi nəzarət etmək üçün Kənd Təsərrüfatı Nazirliyinin yerlərdə olan qurumlarına daha böyük səlahiyyətlər vermək lazımdır. Məhz onlar hər bir əkin sahəsini yoxlamalı və yerindəcə ciddi tədbir görməli, yalnız tövsiyə verib getməməli, toxumun sənədlərini, onların düzgünlüyünü yoxlamalıdırlar. Bu sənədlərin tərtibi isə, qeyd etdiyimiz kimi, sahələrin aprobasiyasından asılıdır.

Bütün bu deyilən problemlərin həlli günün ən vacib və təxirəsalınmaz məsələsidir. Çünki toxumçuluqda olan bu problemləri həll etmədən heç bir zaman yüksək və keyfiyyətli məhsul əldə etmək mümkün deyil. Yeri gəlmişkən, qeyd edək ki, sözügedən problemin həlli üçün Kənd Təsərrüfatı Nazirliyinin nəzdində toxumçuluq laboratoriyaları fəaliyyət göstərir. Ancaq fermerlərin bu sahəni bilməmələri sonda adi məhsulla səpin aparılmasına gətirib çıxarır. Vacib olan isə səpindən qabaq toxumları qarışıqlardan təmizləmək, çəkisinə və iriliyinə görə çeşidləmək, mütləq çəkisini təyin etmək, təsərrüfat yararlılığını, xəstəlik və ziyanvericilərə, karantin alaqlara tutulma dərəcəsini yoxlamaqdır. Toxum kondisiyaya uyğun olmazsa, müəyyən tədbirlər görülməlidir. Adətən, toxumun keyfiyyəti toxum nəzarət laboratoriyalarında təyin edilir və keyfiyyətə dair sənəd verilir. Amma toxumun çeşidlənməsinə, dərmanlanmasına, saxlanmasına da xüsusi nəzarət olmalıdır.

Fermer təsərrüfatlarında yüksək məhsul, yaxşı gəlir əldə etmək üçün hər zonanın torpaq iqlim şəraitinə uyğun sortlar əkilməlidir. Bəzən bizim fermerlər bunu nəzərə almır, suvarma üçün yaradılan sortu dəmyədə və ya əksinə, yaxud vegetasiya müddətini nəzərə almadan dağlıq sortu aranda və ya əksinə əkirlər. Yekunda istədiyi qədər məhsul əldə edə bilmir. Bu isə çox diqqət yetirilməli məsələdir. Bundan əlavə, çox zaman xaricdən gətirilmiş eyni toxumun bir zonada yaxşı, başqa yerdə isə pis olması ilə rastlaşırıq. Bizdə bu məsələyə xüsusi diqqət ayrılmalıdır. Hər zonanın şəraitinə uyğun sortlar yaradılmalı və tətbiq olunmalıdır. Xaricdən gətirilmiş sortlar həm də müəyyən xəstəliklərin yayılmasına səbəb olur. Odur ki, onların əvəzinə son illər alimlərimiz tərəfindən yaradılan yüksək məhsuldar sortlara üstünlük verilməsi daha məqsədəuyğun olardı. Bu, həm də ölkəmizdə seleksiya işinin geniş aparılmasına təkan verərdi.

Toxum və sort amilləri ilə yanaşı, bəzi məsələlər də var ki, fermer onları da mütləq nəzərə almalıdır. Məsələn, torpaq analizi. Bol məhsul üçün torpaqları analiz etmək, onu tanımaq, lazımi qida elementləri ilə zənginləşdirmək lazımdır. Analiz etmədən, hansı qida elementinə ehtiyac olduğunu bilmədən səpin aparmaq, gübrələri necə gəldi vermək olmaz. Bu, əksinə, daha da pis nəticə verər, torpaqların korlanmasına səbəb olar. Gübrələrin baha olduğu, tərkibinin, keyfiyyətinin dəqiq bilinmədiyi halda bu, daha mənfi nəticələrə gətirib çıxara bilər. Bəzən fermer ucuz gübrə alaraq tətbiq edir və sonda zəhməti və xərci batır. Odur ki, bu məsələyə də diqqət yetirilməli, yəni gübrələr düzgün və vaxtında verilməlidir.

Qeyd edək ki, bu sahədə də dövlət daim fermerlərə qayğıkeşlik göstərir, o cümlədən onlara subsidiyalar verir, yardım edir. Lakin bu zaman onların aldıqları dərmanın, gübrənin, herbisidin də keyfiyyəti bəzən aşağı olur. Bunu ən çox xəstəliklərə qarşı mübarizə tədbirlərində müşahidə edirik. Fermer tədbir görür, ancaq nəticəsi olmur. Xəstəliklər isə məhsuldarlığa 30-50 faiz, bəzən daha çox ziyan vurur. Bu səbəbdən Kənd Təsərrüfatı Nazirliyinin aidiyyəti qurumları həmin məsələni çox ciddi nəzarətdə saxlamalıdır.

Fermer yüksək məhsul istəyirsə, o, yüksək aqrotexniki tədbirləri həyata keçirməli, növbəli əkinə əməl etməli, əkindən biçinə qədər sahəni diqqətdə saxlamalıdır. Lakin fermerlərimiz bəzi hallarda səpində gedib bir də biçin vaxtı sahəyə gəlirlər. Belə etinasız yanaşma olmaz. Başqa vacib məsələ: hazırda ölkəmizdə biçin yekunlaşmaq üzrədir. Bəzi fermerlər sahəni yandırır, bunun xeyirli olduğunu düşünürlər. Buna qəti yol verilməməlidir. Biz bununla torpağı məhv edirik. Onun strukturunu pozur, faydalı mikroorqanizmlərini öldürür, məhsuldarlığını aşağı salırıq. Əvəzində isə fermer gecikmədən sahəni şumlamalı, imkan varsa, onu sulamalı, sahədə olan müxtəlif toxumların cücərməsinə, ziyanvericilərin məhv edilməsinə çalışmalıdır. Növbəti mərhələdə sahədə şumun, eləcə də optimal müddətdə səpinin aparılması vacibdir. Səpini tez və ya gec aparmaq olmaz.

Bitkilərin inkişaf fazaları izlənilməli, lazım olan aqrotexniki tədbirlər həyata keçirilməlidir. Bura sahənin suvarılması, ziyanvericilərə qarşı mübarizənin aparılması, yemləmə gübrələrinin verilməsi və digərləri aiddir. Bəzən payız aylarında havanın az miqdarda yağmurlu keçməsi əkinçilərimizi aldadır. Onlar bunu kifayətedici sanır, suvarma həyata keçirmirlər. Əksinə, bitkinin inkişaf fazalarında daha diqqətli olmaq lazımdır. Məhsuldar kollanma yüksək olmazsa, təbii ki, məhsuldarlıq da aşağı düşəcək. Hazırda ölkəmizdə müxtəlif suvarma sistemlərindən, qurğularından istifadə etməklə vegetasiya suvarmaları həyata keçirilir. Bu təqdirəlayiqdir. Çalışmaq lazımdır ki, qlobal iqlim dəyişkənliklərinin baş verdiyi, su qıtlığının yarandığı indiki zamanda fermerlərimiz belə suvarma üsullarına üstünlük versinlər. Bu, həm də iqtisadi baxımdan daha sərfəlidir.

Bitkilərin qışlama dövründə də onlara müəyyən aqrotexniki qulluq edilməlidir. İlk növbədə ziyanvericilərə qarşı mübarizə tədbirləri həyata keçirilməlidir. Yazın ilk aylarında yemləmə gübrələrinin verilməsi, sahənin alaqlardan təmizlənməsi mütləqdir. Bəzən isə bu tədbirlər həyata keçirilmir. Bu halda sahələrdən yüksək məhsul əldə etmək mümkün deyil. Bəzən də fermerlərimiz bu tədbirləri həyata keçirsələr də, yaxşı nəticə əldə edə bilmirlər. Bunun başlıca səbəbi, qeyd etdiyimiz kimi, onların istifadə etdikləri dərman və preparatların keyfiyyətinin aşağı və ya saxta olmasıdır. Bəzən əkinçilərimiz ucuz gübrə və dərmanlardan istifadə edirlər ki, bunun da elə bir müsbət nəticəsi olmur. Odur ki, bu məsələyə ciddi nəzarət edilməlidir.

Məhsul itkisinə səbəb olan amillərdən biri də onun vaxtında yığılmamasıdır. Bəzən sahələr yumşaq və bərk buğda növlərinin qarışığından ibarət olur ki, bu da tam yetişmədə özünü büruzə verir. Yumşaq buğdalar bərk buğdalara nisbətən tez yetişdiyi üçün biçini vaxtında aparmaq olmur. Həm də yumşaq buğdalar tam yetişən kimi yığılmadıqda dənin tökülməsi baş verir ki, bu da məhsuldarlığı aşağı salır. Eləcə də belə qarışıq əkinlərin məhsulundan təyinatı üzrə istifadə etmək mümkün deyil. Ən əsası biz ondan çörəkbişirmədə istifadə edə bilmirik. Sonra deyirlər ki, yerli buğdaların keyfiyyəti aşağıdır. Halbuki yerli buğdalarımız (məsələn, Qırmızı buğda, Kəhraba buğda, Zoğal buğda, Qızıl buğda, Sarı buğda, Qaraqılçıq buğda, Ağ buğda və s.) dünyaca məşhur olub.

İkinci böyük problem isə taxılyığan kombaynların çatışmamasıdır. Bu işdə iri sahələri olan fermerlərin, şirkətlərin ciddi problemləri olmasa da, xırda əkin sahələri olan mülkiyyətçilər çox çətinlik çəkirlər. Kiçik sahələrə kombaynçılar ya getmir, ya da ən sonda gedirlər. Bu zaman isə dən tökülmüş olur, bəzən də sahəni alaq bitkiləri basmış olur. Bunun çıxış yolu xırda təsərrüfatların birləşərək iri təsərrüfatlar yaratması, eyni bitkinin daha geniş ərazilərdə əkilməsidir. Bu, həm də digər aqrotexniki tədbirlərin düzgün və vaxtında həyata keçirilməsinə şərait yaradar.

Son illər dövlət təkrar əkinlərə xüsusi üstünlük verir, taxılın biçinindən sonra sahələrdə ikinci bir bitkinin əkininə ayrıca subsidiyalar verir. Fermerlərimiz də taxıl yığıldıqdan sonra əksər hallarda həmin sahələrdə qarğıdalı əkirlər. Bu, həm yem bazasının möhkəmlənməsinə, həm də əlavə məhsulun əldə olunmasına səbəb olur. Amma bu zaman təkrar əkinin hansı məqsədlə aparılmasına diqqət vermək lazımdır. Əgər sahə dən məhsulu üçün əkilirsə, o zaman qısa vegetasiyalı, yəni tezyetişən sort və hibridlərə üstünlük vermək lazımdır. Yox, silos məqsədilə əkilirsə, daha hündürboylu, uzunvegetasiyalı sort və hibridlərin əkilməsi tövsiyə olunur.

Toxumçuluqda problemlərə gəldikdə, onlar, əsasən, sortlar və onların toxumları üzərində nəzarətin olmaması, beynəlxalq təcrübəyə əsaslanmayan seleksiya fəaliyyətinin aparılması, toxum istehsalı və tədarükündə pərakəndəlik, toxum bazarı və dövriyyəsində olan problemlərdir. Toxum istehsalı ilə məşğul olan təsərrüfatların maddi-texniki bazasının zəifliyi, toxumların saxlanılmasının təşkilində baş verən çatışmazlıqlar, özəl toxum istehsalçılarının işinin qeyri- mütəşəkkilliyi, superelit və elit toxum istehsalı üçün planlaşdırmanın zəif aparılması, toxum istehsalı istiqamətində beynəlxalq layihələrin yetərincə olmaması da toxumçuluqda olan problemlərdəndir. Toxum bazarı və dövriyyəsində olan problemlər isə alıcılar tərəfindən yaranan inamsızlıq, toxum satışı ilə məşğul olan özəl şirkətlərin işinin pərakəndəliyidir. Bu səbəbdən toxumçuluğa kömək və dəstək siyasətinin inkişafı, toxum sahələrində nəzarət sisteminin gücləndirilməsi, bu sahədə azad bazar strukturunun yaradılması, beynəlxalq standartlar və sertifikatlaşdırma sisteminin (OECD/İSTA) tətbiqi, özəl toxumçuluq sisteminin inkişafı, toxumçuluqla məşğul olan kadrların bilik və bacarıqlarının artırılması kimi tədbirlər sisteminin işlənib həyata keçirilməsi lazımdır.

Ümumilikdə ölkədə bu sahənin inkişafı aqrar sektorun qarşısında duran ən prioritet məsələ olmalıdır. İlk növbədə istifadə edilən sortların yaxşılaşdırılması və yeni sortların yaradılması istiqamətində işlər genişləndirilməli, hər zonanın torpaq-iqlim şəraitinə uyğun sortların yaradılmasına nail olmaq lazımdır. Bunun üçün isə ölkədə seleksiya və toxumçuluq işlərinin elmi təminatının gücləndirilməsi və irihəcmli elmi-tədqiqat işlərinin aparılması çox vacibdir.

Eyni zamanda ölkədə dövlət və özəl toxumçuluq təsərrüfatlarının istehsal imkanlarının genişləndirilməsi və istehsal edilən toxumun keyfiyyətinə nəzarət sisteminin gücləndirilməsi, yeni irihəcmli müasir dövlət və özəl toxumçuluq təsərrüfatlarının yaradılması da məqsədəuyğun olardı.

Bunlardan əlavə, fermerlərə və torpaq istifadəçilərinə sort seçimi və toxumçuluq sahəsində təlimlərin keçirilməsi və sahə məsləhət xidmətinin təşkili, toxumluq sahələrinin aprobasiyasının aparılmasına nəzarətin gücləndirilməsi və aprobatorların yenidən hazırlanması işinin təşkili, seleksiya və toxumçuluq sahəsində kadr hazırlığının yaxşılaşdırılması üçün ali və orta təhsil müəssisələrində xüsusi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması müsbət nəticə verərdi.

***Firudin QURBANOV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin professoru, "Taxıl və paxlalı bitkilər" sahəvi laboratoriyasının müdiri, Əməkdar kənd təsərrüfatı işçisi***

# Yenidən canlanan turizm

## Xarici turistlərin sayında iki il davam edən azalma başa çatır

**Azərbaycan tarixən böyük turizm potensialı ilə fərqlənib. Şərqlə Qərbi birləşdirən əlverişli coğrafiyada yerləşməsi, fərqli mədəniyyətləri və dünyagörüşlərini bir araya gətirən multikultural dəyərlərə, 800 kilometrdən artıq məsafədə dənizsahili zonaya, 12 iqlim qurşağından 9-na malik olması, füsunkar təbiəti, qədim tarixi və mədəniyyət abidələri respublikamızın geniş turizm imkanlarından xəbər verir. Bu potensialdan səmərəli istifadə edilməsi dövlət siyasətinin tərkib hissəsi olmaqla yanaşı, iqtisadi tərəqqi və yüksəlişə xidmət edən mühüm amildir.**

### 2019-cu ildə Azərbaycana gələn əcnəbilərin sayı 3 milyon nəfərdən çox olub

Ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turistlərin Azərbaycana səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin yaradılması, bu sahədə sahibkarlığın inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması istiqamətində son dövrlərdə məqsədyönlü işlər görülüb və görülməkdədir. Demək olar ki, respublikamızın bölgələrindəki bütün hava limanları müasir standartlar səviyyəsində yenidən inşa olunub və hər biri beynəlxalq status daşıyır. Eyni zamanda ölkəmizdə nəinki beynəlxalq əhəmiyyətli avtomobil yolları, o cümlədən rayonlararası, kəndlərarası şose yolları yenidən qurulub. Vaxtilə yolu olmayan yaşayış ünvanlarına yeni yollar çəkilib.

Digər tərəfdən Azərbaycanda tamamilə yeni, beynəlxalq standartlar səviyyəsində hotel infrastrukturu formalaşıb. İndi Bakı ilə yanaşı, digər şəhərlərimizdə və rayonlarda beşulduzlu, dördulduzlu, üçulduzlu mehmanxanalar, qonaq evləri, hostellər fəaliyyət göstərir. Azərbaycana gələn turist büdcəsinə uyğun istirahət məkanı seçməkdə heç bir çətinliklə üzləşmir.

Azərbaycanın turizm imkanlarının və potensialının təbliğində, xarici turistlərin sayının dinamik artımında mühüm rol oynayan vasitələrdən biri də ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsidir. Xüsusilə qeyd edilməlidir ki, Bakıda 2012-ci ildə keçirilən "Avroviziya" mahnı müsabiqəsi, 2015-ci ildə keçirilən I Avropa Oyunları, 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları, həmçinin "Formula-1" yarışları Azərbaycanı dünyaya daha yaxından tanıdıb və bunun da nəticəsində ölkəmizə gələn turistlərin sayında əhəmiyyətli dərəcədə artım baş verib. Təsadüfi deyil ki, 2018-ci ildə Azərbaycana gələn xarici turistlərin sayı 2,8 milyon nəfərə çatmışdı. Bu, 2017-ci illə müqayisədə 153 min və ya 5,7 faiz çox idi.

2019-cu ildə isə Azərbaycana gələn əcnəbilərin sayı 3,17 milyon nəfərə çatmışdı ki, bu da əvvəlki illə müqayisədə təxminən 11,3 faiz çoxdur. Onların 90 faizi Azərbaycana turist kimi gəlmişdi.

### Ötən ilin ilk yarısı ilə müqayisədə 127 faiz artım var

COVID-19 pandemiyası səbəbindən bütün dünyada quru və hava yolları ilə hərəkətin məhdudlaşdırılması, o cümlədən turizm xidmət sahələrinin fəaliyyətinin dayandırılması qlobal miqyasda turizmə güclü təsir göstərdi. Elə buna görə də 2020-ci ildə Azərbaycana gələn əcnəbilərin sayı 74,9 faiz azalaraq 796 min nəfər təşkil etdi. 2020-ci ildə Azərbaycana gələn əcnəbilərin 65 faizi yanvar-mart aylarında ölkəmizə səyahət edənlər idi. 2021-ci ilin yanvar-dekabr aylarında isə Azərbaycana gələnlərin sayı 790 min nəfər təşkil etdi.

Pandemiyanın əvvəlki dövrlə müqayisədə zəifləməsi, məhdudiyyətlərin aradan qaldırılması ölkəmizə gələn turistlərin sayında da özünü göstərməkdədir. Belə ki, 2022-ci ilin ilk yarısının statistikası göstərir ki, respublikamıza səyahət edən əcnəbilərin sayı yenidən artıb. Bu ilin yanvar-iyun aylarında respublikamıza səyahət edənlərin sayı 638 min 770 nəfər olub. Bu, ötən ilin ilk yarısı ilə müqayisədə 127 faiz çoxdur. 2021-ci ilin yanvar-iyun aylarında Azərbaycana gələnlərin sayı cəmi 281 min 817 nəfər təşkil etmişdi. Təkcə bu ilin iyun ayında Azərbaycana 170 min 600 nəfər gəlib ki, bu da ötən ilin iyun ayı ilə müqayisədə 154 faiz çoxdur.

Görünən odur ki, pandemiyanın azalması və məhdudiyyətlərin aradan götürülməsi səbəbindən respublikamızda turizm sahəsində yenidən canlanma yaranmaqdadır. Şübhə yoxdur ki, hazırkı gedişlə ən qısa vaxtda respublikamıza gələn xarici turistlərin sayında artım müşahidə ediləcək.

Ümumiyyətlə, turizm sahəsi pandemiyadan ən çox zərərçəkən fəaliyyət sahələrindən biri hesab olunur. Hazırda Avropa ölkələrinə də səyahət edən əcnəbi turistlərin sayı hələ koronavirus pandemiyasından əvvəlki göstəricilərdən aşağıdır.

### Qarabağ və Şərqi Zəngəzurun böyük turizm potensialı var

2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanın turizm imkanlarını daha da artırıb. Saf havası, gözəl təbiəti olan Qarabağ və Şərqi Zəngəzur tək Azərbaycanın deyil, dünyanın ən füsunkar yerlərindəndir. Bu ərazilərin meşə, su və torpaq resursları ölkəmizdə turizmin inkişafı üçün böyük imkanlar yaradır. Azərbaycanın mineral su ehtiyatlarının böyük bir qismi bu ərazilərdədir. Bu yerlərdə qoruqlar, yasaqlıqlar və tarixi abidələrin olması sayəsində turizmin inkişafı üçün böyük potensial var. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının da turizm imkanları çox genişdir.

İyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində Prezident İlham Əliyev deyib: "Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur".

Qarabağ və Şərqi Zəngəzur tezliklə tamamilə yenidən qurulacaq. İşğaldan azad olunan torpaqlarımız tarixi şöhrətlərini özlərinə qaytarmaqla yanaşı, həm də turizm bölgəsi kimi inkişaf edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# AZAL yeni "Boeing-787 Dreamliner" hava gəmilərini parkına daxil edəcək

**"Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti öz hava gəmiləri parkını dörd yeni müasir "Boeing 787-8 Dreamliner" avialayneri ilə genişləndirəcək.**



"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, dünən AZAL-ın prezidenti Cahangir Əsgərov və "Boeing Commercial Airplanes" şirkətinin prezidenti, mülki təyyarələr bölməsinin baş icraçı direktoru Sten Dil müvafiq anlaşma memorandumu imzalayıblar. Sənədin imzalanması Farnboroda keçirilən məşhur Aviasiya şousu ("Farnborough International Airshow" - Böyük Britaniya) çərçivəsində baş tutub.

Qeyd edilən növ hava gəmilərinin 2025 - 2030-cu illər ərzində Azərbaycana gətirilməsi nəzərdə tutulub.

"AZAL postsovet məkanında "Boeing 787-8 Dreamliner" təyyarələrinin istismarına başlayan ilk aviaşirkətdir. Hazırda aviaşirkətimizdə bu tip iki layner istismar edilir. İmzalanmış memorandum yüksək səviyyədə qarşılıqlı faydalı aviasiya tərəfdaşlığının qurulması çərçivəsində AZAL və "Boeing"in fəal işinin sübutudur. İstismar edildiyi illər ərzində bu tip təyyarələr özünü əla tanıtmışdır. Aviaşirkətin hava gəmiləri parkına uzaqməsafəli yeni təyyarələrin daxil edilməsi "Azərbaycan Hava Yolları"nın dünyada iştirak coğrafiyasını daha da genişləndirəcək", - deyə AZAL prezidenti Cahangir Əsgərov qeyd edib.

"Bugünkü saziş bütün dünyada müşahidə etdiyimiz səyahətə artan tələbatı təmin etmək üçün hava gəmiləri parkını yeniləyən "Azərbaycan Hava Yolları" aviaşirkəti ilə uzunmüddətli əməkdaşlığımızın davamıdır. "Boeing-787" hava gəmiləri havadaşımaları bazarının tənəzzülü zamanı dünya aviaşirkətləri tərəfindən digər genişfüzelyajlı təyyarələrlə müqayisədə daha fəal istismar olunmuşdur. Biz bu tip hava gəmisinin imkanları və xüsusiyyətlərinə arxayınıq", - deyə "Boeing Commercial Airplanes" şirkətinin prezidenti, mülki təyyarələr bölməsinin baş icraçı direktoru Sten Dil bildirib.

Qeyd edək ki, Farnboro Beynəlxalq Aviasiya Şousu ("Farnborough International Airshow" (FIA)) Farnboro hava limanı ərazisində iki ildən bir keçirilir. Bu tədbir aerokosmik avadanlıq və texnologiyalar sahəsində ən mühüm ümumdünya platformasıdır. 2016-cı ildə FİA dünyanın ən böyük aviakosmik sənayesi sərgisi statusunu qazanmışdır. FİA-da ümumilikdə, 80 mindən çox ziyarətçinin, təxminən 1500 aviakosmik sənaye mütəxəssisinin iştirakı gözlənilir.

# Qarabağa dönən həmvətənlərimizin xidmətindəyik

## Bunu bəyan edən "Azercell" Zəngilanın Ağalı kəndinin ilk sakinlərinin yolunu gözləyir

**19 iyul 2022-ci il tarixdə azərbaycanlı əhalinin işğaldan azad olunan Qarabağ torpaqlarına Böyük qayıdışı başladı.**

Azad edilmiş ərazilərdə ilk mobil rabitə xidmətini təqdim edən "Azercell" şirkəti bu tarixi hadisəyə - 30 ilə yaxındır yurd həsrəti ilə yaşayan ailələrin Zəngilan rayonunda Ağalı kəndinə qayıtmasına öncədən hazırlaşmışdı. Belə ki, Zəngilana qayıdacaq ilk 100 ailə "Azercell"dən 5 GB internet almaqla yanaşı, xüsusi hədiyyələrlə qarşılanacaq.

Ölkəmizdə ilk dəfə müasir texnologiyaların tətbiqi ilə "Ağıllı kənd" layihəsinin icra olunduğu Ağalı kəndində bu ilin iyunundan etibarən "Azercell Telekom" MMC-nin rəsmi satış və xidmət məntəqəsi fəaliyyət göstərir. Abunəçilərə yüksək standartlara uyğun xidmət göstərmək üçün tələb olunan bütün şərait və ən müasir avadanlıqlarla təmin olunmuş məntəqədə şirkətin digər müştəri xidmətləri mərkəzlərində həyata keçirilən əksər abunəçi əməliyyatlarının icrası mümkündür. Mağazada abunəçilərə istədikləri məhsulu tədqiq və müqayisə edib seçməkdə peşəkar satış mütəxəssisləri yardım edirlər. Paytaxt və digər bölgələrdə fəaliyyət göstərən diler mağazalarında olduğu kimi, Ağalı kəndində yerləşən mağazada da gündəlik istifadə üçün nəzərdə tutulmuş bir sıra cihazlar (MiFi, USB modem və s.), müxtəlif aksesuarlar əldə etmək, mobil telefonları kredit və nağd şəkildə satın almaq mümkündür.





Həyatın yenidən qayıtdığı ərazilərimizdə Böyük qayıdışı təmin etmək üçün yenidənqurma işləri, bütün istiqamətlər üzrə infrastrukturun bərpası, müxtəlif istiqamətli genişmiqyaslı işlər və sosial layihələr həyata keçirilir. "Azercell" şirkəti də özünün "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" strateji məqsədinə əsaslanaraq, işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini verir və Qarabağda mobil şəbəkə infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Şirkət bu ərazilərdə ən müasir radiobaza stansiyalarını quraşdırmaqla Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri yüksəkkeyfiyyətli mobil xidmətlərlə təmin edib.

Bundan əlavə, azad olunmuş ərazilərimizdə "Azercell"in şəbəkəsindən faydalanan abunəçilərə dəstək məqsədilə şirkətin müştəri xidmətləri komandası Zəngilanın Ağalı kəndi də daxil olmaqla, bir çox bölgələr, o cümlədən Şuşa, Cəbrayıl, Qubadlı və Kəlbəcərə səfər edib, abunəçilərə ödənişsiz xidmət göstəriblər.

"Azercell" şirkəti böyük sevinc və qürur hissi ilə işğaldan azad olunmuş torpaqlara qayıdan həmvətənlərimizi ən qabaqcıl telekommunikasiya xidmətləri ilə təmin etmək üçün öz infrastrukturunu qurmağa davam edir, bu ərazilərin dirçəlməsi və yenidən qurulması prosesində iştirak etməyə hazır olduğunu bəyan edir.

# Aİ Albaniya və Şimali Makedoniya ilə üzvlük danışıqlarına başladı

**Belçikanın paytaxtı Brüsseldə Albaniya və Şimali Makedoniyanın Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqlar başlayıb. Danışıqları Aİ rəhbərləri ilə Albaniya və Şimali Makedoniyanın baş nazirləri aparırlar.**



Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Albaniya və Şimali Makedoniyanın hökumət başçıları ilə birgə mətbuat konfransında bildirib ki, hər iki ölkənin vətəndaşları buna layiqdirlər.

Öz növbəsində Şimali Makedoniyanın Baş naziri Dimitar Kovaçevski ölkəsinin Aİ-yə qoşulmağa hazır olduğunu və NATO-ya inteqrasiya olunduğu kimi, "Avropa İttifaqına da erkən inteqrasiyanın müsbət nümunəsi olmaq" istədiyini vurğulayıb.

### Borrell: "Aİ Qərbi Balkanlar olmadan irəli gedə bilməz"

Bu arada Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell iki dövlətlə danışıqların başlamasını təkcə özləri üçün deyil, həm də Qərbi Balkanlar və bütövlükdə Aİ üçün əhəmiyyətli olacaq "böyük irəliləyiş" kimi qiymətləndirib. O xatırladıb ki, Skopye 17 il əvvəl namizəd statusu alıb və o vaxtdan bəri çox iş görülüb.

"Biz böyük geosiyasi dəyişikliklər, tektonik dəyişikliklər dövründə yaşayırıq... Şübhəsiz ki, biz tarixin kəsişməsindəyik və biz geostrateji mühitimizdə dəyişikliklərin şahidi oluruq və siz də onun bir hissəsisiniz", - deyə Borrel bildirib. O vurğulayıb ki, avropalılar yalnız Qərbi Balkanları bütövlükdə Aİ-yə inteqrasiya etməklə birlikdə irəliləyə bilərlər. Onlarsız Aİ tam olmayacaq.

### Skopye Bolqarıstanın tələblərini qəbul etdi

Bir neçə gün əvvəl Şimali Makedoniya hakimiyyəti Bolqarıstanın Aİ-yə üzvlüklə bağlı etirazlarını aradan qaldırmaq üçün ölkə Konstitusiyasına dəyişiklik etməyə razılaşıb. Xatırladaq ki, ötən ayın sonunda Bolqarıstan parlamenti Aİ ilə Şimali Makedoniya arasında danışıqların başlanmasını təsdiqləyib. Bununla da Şimali Makedoniya Aİ-yə daxil olması ilə bağlı danışıqlara maneə törədən və 2020-ci ildə Sofiyadakı hökumətin tətbiq etdiyi blokadanı aradan qaldırıb.

Sofiyanın qərarında bir sıra şərtlər yer alırdı ki, bunların arasında Şimali Makedoniyadakı bolqar azlığının hüquqlarının Konstitusiyaya düzəlişlər vasitəsilə müdafiəsi, həmçinin Skopyenin Bolqarıstanla mehriban qonşuluq münasibətlərini qorumaq öhdəliyi var. Bu kompromis hazırda Aİ-yə sədrlik edən Fransa tərəfindən təklif edilib.

Şimali Makedoniya 2005-ci ildə Aİ-yə namizəd statusu alıb. Quruma üzvlük danışıqları uzun müddətdir ki, davam edir. Tərəflər ətraf mühit hüququndan tutmuş korrupsiya ilə mübarizəyə qədər 35 müxtəlif mövzunu müzakirə edirlər.

### Albaniya Aİ-yə namizəd statusundan ruhlanıb

Bir çox albanların fikrincə, Aİ-yə namizəd statusu ölkə üçün irəliyə doğru böyük addımdır. 2014-cü ildə bu statusu alan Albaniya öz qanunvericiliyini Aİ standartlarına uyğunlaşdırmalıdır.

Yol xəritəsinin fəsilləri altı əsas klasterdə qruplaşdırılıb və ölkənin əldə etdiyi irəliləyişdən, habelə Aİ qanunvericiliyini necə tətbiq etməsindən asılı olaraq açılacaq və ya bağlanacaq. Tirana üçün Aİ-yə tam üzvlük daha bir addım yaxınlaşıb, lakin bu yol hələ də çox çətindir.

Qeyd edək ki, namizəd statusu Aİ-yə avtomatik daxil olmaq demək deyil. Albaniya hələ də genişmiqyaslı islahatlar həyata keçirməlidir, xüsusən də korrupsiya ilə mübarizə sahəsində.

Avropa İttifaqı 27 dövləti birləşdirən dövlətlərarası iqtisadi və siyasi təşkilatdır. Formal olaraq 1 noyabr 1992-ci ildə Maastrixt sazişi ilə təsis edilmiş bu ittifaqın təməli 18 aprel 1951-ci il tarixli Paris müqaviləsinə əsasən, Belçika, Almaniya, Fransa, Niderland, Lüksemburq və İtaliya tərəfindən Avropa Kömür və Polad Birliyinin yaradılması ilə qoyulub.Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir.

Aİ yeganə beynəlxalq qurumdur ki, özündə həm beynəlxalq təşkilat, həm də dövlət əlamətləri daşıyır, əslində isə, formal olaraq heç biri deyil. Belə ki, bəzi məsələlər birliyin ümumi institutları, bəziləri isə üzv dövlətlərin nümayəndələrinin razılaşması ilə qəbul edilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Məhkumların cəzadan azad olunması üçün saxta elektron sənədlər hazırlayan şəxslər ifşa ediliblər

Ölkəmizdə cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən yeni təhlükəli növü olan, kompüter sistemlərinə qanunsuz müdaxilə hallarını özündə ehtiva edən kibercinayətkarlığa qarşı qəti mübarizə tədbirləri görülür və cəzanın labüdlüyü prinsipi təmin edilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin və Ədliyyə Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, məhkumların cəza çəkdikləri dövrdə həqiqi islah olunmaları, törətdikləri əməllərdən səmimi peşmanlıq hissi keçirmələri, zərərçəkmiş şəxslə barışığa nail olunması və dəymiş ziyanın aradan qaldırılması həmin şəxslərin daha yüngül rejimli müəssisəyə keçirilməsi və cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə institutunun tətbiqində əsas yaradan hallardandır. Lakin bununla belə, hüquq-mühafizə və məhkəmə orqanları tərəfindən tətbiq olunan bu humanist yanaşmadan sui-istifadə edilərək zərərçəkmiş şəxslərin adından saxta barışıq ərizələrinin tərtib olunması, cəzanın yüngülləşdirilməsi məqsədilə qeyri-qanuni hazırlanmış sənədlərin təqdim edilməsi halları müşahidə olunmaqdadır. Belə ki, ağır cinayət törətdiyinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş Elgün Hüseynovun cəzasının yüngülləşdirilməsi məqsədilə təqdim olunmuş zərərçəkmiş şəxsin hüquqi varisinin barışıq ərizəsi şübhə doğurduğundan Ədliyyə Nazirliyi tərəfindən araşdırılaraq belə bir razılığın əldə olunmadığı, müvafiq sənədin kompüter proqramı vasitəsilə saxta yolla hazırlandığı müəyyən edilib. Həmin əməldə kibercinayətin əlamətləri olduğundan materiallar aidiyyəti üzrə araşdırılması üçün Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim olunub.

Faktla bağlı başlanılmış cinayət işinin istintaqı zamanı müəyyən edilib ki, əvvəllər eyni cəzaçəkmə müəssisəsində cəza çəkmiş Sənan Mehdiyev, Ehtibar Mehdiyev və Vasif İsmayılov azadlıqda olarkən cinayət əlaqəsinə girərək müxtəlif məhkumların sifarişi ilə bir sıra işlər üzrə zərərçəkmiş tərəflərin adından ziyanın ödənildiyi və barışığın olduğu barədə, guya, notariat qaydasında təsdiq olunub, üzərində QR kod yerləşdirilmiş saxta ərizələr hazırlamaqla bu sənədləri internetdə müvafiq rəsmi saytın interfeysinə bənzər, həqiqi olmayan səhifə yaradaraq orada yerləşdirilməsini təmin edib və bununla da həmin ərizələr məhkəmə prosesləri zamanı rəsmi saytda yerləşdirilib və həqiqiliyi QR kodla təsdiq edilən sənədlər adı altında təqdim olunub.

Eyni zamanda müəyyənləşdirilib ki, həmin cinayətkar qrup eyni üsullarla bir sıra digər məhkumların vaxtından əvvəl cəzadan azad olunması məqsədilə, guya, zərərçəkən tərəflə barışıq əldə olunduğu, ziyanın ödənildiyini göstərən saxta sənədləri kompüter texnologiyalarından istifadə etməklə hazırlamış və məhkəmə prosesləri zamanı istinad edilməsi üçün aidiyyəti üzrə təqdim edərək cinayət əməllərinə yol verib.

Sənan Mehdiyev, Ehtibar Mehdiyev və Vasif İsmayılov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci (rəsmi sənədləri qanunsuz hazırlama, satma), 273-2-ci (kompüter məlumatlarını saxtalaşdırma) və 294.3-cü (sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət məsuliyyətinə cəlb olunub, yaratdıqları müvafiq elektron səhifənin fəaliyyəti isə dayandırılıb.

Hazırda Dövlət Təhlükəsizliyi Xidməti və Ədliyyə Nazirliyi tərəfindən saxta sənədlərdən istifadə etmiş şəxslərin tam dairəsinin müəyyən olunması və digər əlaqəli xüsusatlar üzrə araşdırmalar davam etdirilir.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi filialı və Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi filialının inzibati binasının əsaslı təmir işlərinin, avadanlıqlarının və inventarlarının satın alınması məqsədilə elan edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən baş tutmamış hesab olunur və onun davamından imtina edilir.

*Tender komissiyası*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansında olan "Şirvan-3" kran gəmisi üçün Sulzer 8ASL25/30 baş mühərriklərin ehtiyat hissələrinin satın alınması məqsədi ilə

*müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç.2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1071.**

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanova anası

**İFFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cahan Məmmədov ailəsi ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüqar Əhmədova atası

**RAMİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin kollektivi icra başçısının birinci müavini Səməd Tomuyevə atası

**İSAQ TOMUYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev və müəssisənin kollektivi Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevə atası

**İSAQ TOMUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5010
Sifariş 1979
Qiyməti 40 qəpik